# 18 OKTYABR MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 227 (9394) 18 OKTYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Qarabağ Azərbaycan iqtisadiyyatında təkanverici qüvvəyə çevriləcək

### Prezident İlham Əliyev Füzuli Şəhəri Günündə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Füzuli Şəhəri Günündə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı tədbirdə çıxış etdi.

→ 2



## Müstəqilliyimizin Xankəndi zirvəsi

### İstiqlaliyyətimizin bərpasının ildönümünü xalqımız bütöv Azərbaycanın qüruru ilə qeyd edir

**"...Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir.**

...Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin oktyabrın 15-də, müstəqilliyimizin bərpasının 32-ci ildönümü ərəfəsində Xankəndidən xalqımıza müraciətində qürurla vurğuladığı kimi, Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsi müstəqillik aktımızın qızıl möhürü, tarix salnamələrimizə silinməz hərflərlə yazılan və min illər sonra belə fəxrlə anılacaq böyük qələbədir.

#### Bayram bayrama qarışıb

Azərbaycan adına ard-arda qazanılan tarixi nailiyyətlər, uğurlar, qələbələr, zəfərlər sayəsində bayramlarımızın bayramlarımıza qarışdığı, təqvim günlərimizin bir-bir al qırmızı rəngə boyandığı fəxrli, qürurlu, təntənəli günlər yaşayırıq...

Biz müstəqilliyimizin bərpası gününü Xankəndidə Dövlət bayrağımızın ucaldılmasının misilsiz coşqusu, Bayraq günümüzü Şuşa Zəfərinin təsvirəgəlməz təntənəsi ilə ikiqat bayram kimi qeyd edirik...

İllərdir həsrəti ilə qovrulduğumuz torpaqlarımızın azadlıq günlərini elə həmin yurdlarda sevinclə, xoşbəxtliklə keçirir, hər gün bir elin - cəbrayıllıların, füzulililərin, zəngilanlıların, qubadlılıların, ağdamlıların, kəlbəcərlilərin, laçınlıların, şuşalıların qonağı oluruq...

Ağdərədə, Əsgəranda, Xocalıda, Xankəndidə məğrur-məğrur dalğalanan üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımıza baxdıqca fərəhdən köksümüzün qabardığı, sevincdən göz yaşlarına boğulduğumuz, İlahi xoşbəxtlik duyduğumuz tarixi anlar, günlər, aylar, illər yaşayırıq...

→ 7

## Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni zirvələri fəth edəcək

### Parlament Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubu ünvanladı

Müstəqil Azərbaycan dövlətinin iflasa uğraması təhlükəsi tam real idi. Taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol vermədi.

1993-cü il iyunun 15-də ali dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi.

Spiker xatırladıb ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibəti ilə bu il mayın 16-da və iyunun 14-də Milli Məclisin xüsusi iclaslarında dünya miqyaslı siyasi və dövlət xadiminin misilsiz xidmətlərindən minnətdarlıq duyğuları ilə danışıldı. Qeyd edildi ki, xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində reallaşdıra bilib. Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq, Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən keçirərək sabitlik və inkişaf dövrünə çatdırdı.

Bugünkü müasir Azərbaycan Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nişanəsidir.

→ 5

## Xudafərin əməliyyatı

### Strateji əhəmiyyətli tarixi körpü necə azad edildi?

2020-ci il noyabrın 16-da isə Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş torpaqlarımıza ilk səfərləri zamanı tarixi hadisə yaşanır. Müzəffər Sərkərdə Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırır və 1993-cü ildə işğal edilən Xudafərin 27 ildən sonra azadlığına qovuşur.



→ 8

## Azərbaycan qətiyyətli mövqe nümayiş etdirən müstəqil dövlətdir

Bu gün Ulu Öndərin bizlərə əmanət qoyduğu güclü Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlara imza atır və dünyanın diqqətini özünə cəlb edir. İlham Əliyev Azərbaycanın inkişafı haqqında qeyd etmişdir: "Bizim bütün planlarımızın həyata keçməsi üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir".

→ 6

## Dövlət başçısının Zəfər nitqi Qafqazın gələcək birgəyaşayış direktivi idi

Artıq Ermənistanla şərti sərhədlərdə Azərbaycan istisnasız bütün strateji yüksəkliklərə nəzarət edir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş ruhu və maddi-texniki təchizatı, habelə arsenalı Ermənistandan müqayisə olunmaz dərəcədə üstündür. Ermənistan və havadarlarının 100 ildən artıqdır ki, əsas rıçağı hesab edilən separatizmin kökü cənab İlham Əliyev tərəfindən kəsilib. Ərazi bütövlüyümüz və suverenliyimiz, konstitusiya quruluşumuz artıq bütün ölkə ərazisində tam bərpa olunub. Xankəndidə möhtərəm Prezidentin Zəfər nitqi, əslində, qələbə və Qafqazın gələcək birgəyaşayış direktivi idi. Bu direktivlə cənab İlham Əliyev bütün dünyaya bəyan etdi ki, bölgənin reallığını biz diktə edirik. Hər hansı ikinci bir subyekt və ya güc mərkəzi yeni şərtlər, yeni reallıqlar barədə danışırsa, bunlar kimin səsləndirməsindən asılı olmayaraq cəfəngiyyatdır.

→ 7

## Xalqımız növbəti tarixi hadisəyə şahidlik etdi

Cənab İlham Əliyev prezident seçilməsinin 20 illiyinin tamam olduğu tarixi gündə Azərbaycan xalqına böyük bir müjdə verdi. Ali Baş Komandan Qarabağa səfər edərək Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə Azərbaycan bayrağını yüksəltdi. Bu, Azərbaycan xalqına edilən böyük sürpriz idi. Xalqımız həmin anları kütləvi informasiya vasitələrindən izləyəndə olduqca xoş hisslər keçirdi, Ali Baş Komandanımızla, Prezidentimizlə bir daha qürur duydu.

Vətən müharibəsində müəyyən səbəblərdən separatçı xunta rejiminin cəmləşdiyi iblis yuvasını ərazidə mülki əhali yaşadığı üçün hərbi vasitələrlə dağıda bilməzdik, ona görə də gözləməli idik. Əgər bunu həmin dövrdə reallaşdırsaydıq, orada itkilər çox olardı. Həm də mülki əhali çox ziyan görər, sadə ermənilərin itkisi qaçılmaz olardı.

→ 7

## "İlham Əliyev dediyini etdi, "miatsum" ideyamız iflasa uğradı"

### Azərbaycan Prezidentinin Xankəndidən verdiyi bəyanat Hayastanda təşvişi daha da artırıb

Xankəndi şəhərində qalan Mişa adlı erməni sakin isə maraqlı fikirləri ilə diqqət çəkib. O, 63 yaşında olduğunu və Xankəndidə doğulduğunu deyib: "Artıq bir həftədir burada hamı məni tanıyır, hörmət edir, yemək verir. Hətta dünən general mənə maşın verdi, gedib Ballıcada kəndimə, heyvanlarıma baş çəkdim, qəbiristanlığımızda oldum. Buradakı ermənilərin çoxu qaçdı. Ermənilər deyirdilər ki, bu torpaqlar bizimdir. Əgər torpaq sənindirsə, niyə qaçırdın? Utanıram ki, ermənilər qorxaqcasına qaçdılar. Onlar şəhərdəki bəzi mağazaları, dükanları, hətta azərbaycanlılara məxsus qəbirləri dağıtdılar".

→ 11

# Qarabağ Azərbaycan iqtisadiyyatında

## Prezident İlham Əliyev Füzuli Şəhəri Günündə Füzuli şəhərinə



### Prezident İlham Əliyevin çıxışı

**Prezident İlham ƏLİYEV:** Salam-əleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz. Sizi görməyimizə çox şadıq.

**Şəhid bacısı:** Salam, xoş gəlmisiniz.

**Kişi sakin:** Təbrik edirik, cənab Prezident. Var olasınız. Allaha şükür ki, Füzulidə də görüşə bildik.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə. Sağ olun.

**Qadın sakin:** Təşəkkür edirik, Sizi xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Salam. Siz də xoş gəlmisiniz.

**Sakinlər:** Hər şey üçün minnətdarıq. Qürurumuzsunuz.

**Kişi sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Necə də gözəl bir gündür. Siz mənə "Xoş gəlmisiniz!" deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident, təşəkkür edirik. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Arzu edirəm ki, Füzulidə - doğma Vətəndə rahat yaşayasınız, firavanlıq, rifah içində yaşayasınız.

Şadam ki, gənc nəsil də - füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu, doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməyiblər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq.

İşğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq. Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz nə qədər doğma diyara bağlıyıq.

Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır. Füzulinin yeni siması göz oxşayır.

Onu da bildirməliyəm ki, bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edir. Xüsusilə, bildiyiniz kimi, Azərbaycanda iki dəfə Milli Şəhərsalma Forumu keçirilmişdir, Ağdamda və Zəngilanda və orada bizim bütün layihələrimiz təqdim edilmişdir. Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni rahat yaşamaq üçün bütün infrastruktur, şərait var. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik. Düzdür, laçınlılar füzulililərdən bir qədər tez öz doğma yurduna qayıtmışlar. Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur.

Füzulinin timsalında, eyni zamanda bütün dünya hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir. Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür.

Mən bunu dəfələrlə demişəm, indi bir çoxları bunu bilir, bir daha demək istəyirəm, Füzuli azad olunanda bir salamat bina tapa bilmədik ki, bayrağımızı qaldıraq, bir hərbi hissədən başqa. Onun da həyətində dirəkdə bayrağımızı ucaltdıq və buraya ilk dəfə gələndə, vallah, hər bir azərbaycanlı kimi adamın ürəyi ağrıyırdı, məəttəl qalırdı, dəhşətə gəlirdi insan ki, bu dərəcədə düşmənçiliyin mənbəyi nədir?! Axı biz ermənilərə nə etmişdik?! Biz onlarla yanbayan yaşamışdıq. Onlar bizim çörəyimizi yeyiblər, bizim hesabımıza onlar üçün şəhərlər, kəndlər qurulmuşdu, infrastruktur yaradılmışdı. Sovet dövründə bütün bu işlərin hamısı Azərbaycan büdcəsi hesabına görülmüşdür. İnsanlara zülm etmək, onlara işgəncə vermək, Azərbaycan xalqına qarşı etnik təmizləmə aparmaq, görünür, onların ürəyində olan o qara ləkələr idi. Biz onu bilməmişik o vaxt. Biz bir növ sadəlövh olmuşuq. Ona görə mən deyirəm, biz heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq. Gənc nəsil də bunu bilməlidir. Bu gün bu məktəbdə oxuyan uşaqlar da bunu bilməlidir. Bilməlidir ki, bizim xalqımız hansı çətin sınaqlardan çıxıb, əyilməyib, sınmayıb, özünə inanıb, ordusuna inanıb. İnanıb ki, bu gün gələcək, biz burada durub sizinlə bu bayram gününü qeyd edəcəyik.

Füzuli indi tamamilə yenidən qurulur. Dünən burada olarkən bir neçə önəmli obyektin təməlini qoyduq. İki kəndin, uşaq bağçasının, idman kompleksinin, yeni yaşayış məhəllələrinin, inzibati mərkəzin təməli qoyuldu. Yəni aylar keçdikcə burada yaşayanların sayı da təbii ki, artacaq. Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir. Bu, o cümlədən sizin, yəni böyük nəslin tərbiyəsidir. Çünki onlar evlərdə də, məktəblərdə də bu tərbiyəni görüblər. Ona görə məktəb və ailə bizim buraya qayıtmağımızın vacib amilidir. Çünki qoymadıq ki, gənclər unutsun. Qoymadıq ki, Qarabağ mövzusu silinsin. Halbuki bunu bizə aşılamaq istəyən bir çox ölkələr, qüvvələr var idi, yəni, barışmaq lazımdır, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik, bu mövzu bağlandı! Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir.

İndi isə qalıb ki, insanlar burada rahat yaşasınlar. Onu da bildirməliyəm ki, biz bütün layihələri icra edərkən, o cümlədən məşğulluq məsələlərinə də böyük diqqət yetiririk. Aidiyyəti dövlət qurumları bu məsələ ilə də bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları var. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar, ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək - texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri onlara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Çünki bizim iqtisadiyyatımızın, bax, buradan qalxması ümumi inkişafa da böyük töhfə olacaqdır.

Bu gün bu bayram gününü qeyd edərkən, təbii ki, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik. Mən iki gün əvvəl Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən demişdim ki, bu günə görə biz onlara borcluyuq. Bu, həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var. O da odur ki, onlar canlarını fəda edərək tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq.

Bir daha demək istəyirəm ki, biz hər zaman onlara borclu olmalıyıq. Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar, bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu, bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy, bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərmişdir. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər.

Əziz bacılar, qardaşlar, dostlar, bir daha təbrik edirəm. Bu gün həm sevincli, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük.

Təbrik edirəm, cansağlığı arzulayıram, uşaqlara yaxşı baxın, yetişdirin, vətənpərvər olsunlar, Vətənə bağlı olsunlar, bizim qəhrəmanlar kimi olsunlar, şöhrətimizi göylərə qaldırsınlar. Sağ olun.

* * *

Sonra dövlət başçısı tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirdi, onlarla söhbət etdi.

* * *

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi var eləsin, cənab Prezident.

**Qadın sakin:** Allah Sizi qorusun, Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Bütün kəndlərə gedəcəyik. Füzuli rayonunun artıq 5-6 kəndinin təməli də qoyulub.

**Sakinlər:** Çox şükür.

**Kişi sakin:** Cənab Prezident, ən əsası odur ki, Xankəndi, Xocalı, Xocavənd, Ağdərə sevincini bizə yaşatdınız.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Sakin:** Ən böyük fəxr etdiyimiz odur ki, bizim Prezidentimiz dünyada məşhurdur, onu dünya qəbul edir, dünya onun sözünü eşidir.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, dünya belədir ki, bəziləri qəbul edir, bəziləri.

**Sakin:** Edə bilmir.

**Prezident İlham ƏLİYEV:** Etmir. Amma əsas odur ki, biz istədiyimizi edək. Çünki biz haqq yolundayıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur.

**Qadın sakin:** Artıq yol Zəngəzuradır.

**Prezident İlham ƏLİYEV:** Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham ƏLİYEV:** Necə ola bilər, bizim əsrlərboyu qurduğumuz məkandır. Amma bu gün.

**Kişi sakin:** Ruhu şad olsun, Ulu Öndər deyirdi, mən fəxr edirəm ki, azərbaycanlıyam. İndi hər bir azərbaycanlı fəxr edir ki, sözün həqiqi mənasında, biz azərbaycanlıyıq.

**Prezident İlham ƏLİYEV:** Bəli, elədir.

**Sakin:** Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Ulu Öndər bunu deyəndə tam haqlı idi. Ancaq bilirsiniz, o vaxt işğal dövrü idi və bəziləri hesab edirdi ki, azərbaycanlılar bu işğalla barışacaq. Bəziləri belə çirkin təbliğat aparırdı xüsusilə xarici dairələrdə ki, biz bunu unutmuşuq, biz vəziyyətlə barışmışıq. O isə heç vaxt barışmırdı bu vəziyyətlə və bizə qoyduğu, necə deyərlər, bu yol da məhz azadlıq yolu idi, qurtuluş yolu idi. Ona görə biz bu tarixi Zəfəri çalandan sonra artıq bütün dünya gördü ki, O, o vaxt, o ağır dövrdə nə qədər haqlı idi.

**Sakin:** Uzaqgörən idi, haqlı idi.

**Prezident İlham ƏLİYEV:** Bəli, bilirdi, xalqın, necə deyərlər, qəlbini, qəlbindəki bütün duyğularını bilirdi və əlbəttə ki, həm sevinirik, həm heyfsilənirik ki, O və onun kimi yüz minlərlə insan bu həyatdan getdi, bu günü görmədi.

**Sakinlər:** Ruhları şaddır.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, ruhları şaddır. Buna inanıram və inanmaq lazımdır, onların - həyatdan getmiş, bu günü görməmiş yüz minlərlə keçmiş köçkünün, şəhidlərimizin ruhları şaddır.

**Sakin:** Hörmətli Prezidentimiz, biz füzulililər üçün çox qürurvericidir ki, Qarabağın azad olunması 30 il öncə Ulu Öndərin Prezidentliyi dövründə - 1994-cü ildə Horadiz əməliyyatı ilə başlayıb.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Sakin:** Bizim üçün qürurvericidir ki, Böyük qayıdışın ilk addımı da Sizin Prezidentliyə başladığınız dövrdə Horadiz qəsəbəsinin böyük şəhərə çevrilməsi, Haramıda, Zobucuqda abad qəsəbələrin inşa edilməsi sayəsində baş veribdir.

**Prezident İlham ƏLİYEV:** Düzdür.

**Sakin:** İki il öncə biz burada - Füzulidə təməlqoyma mərasimində iştirak edəndə burada heç nə yox idi. Doğrudan da hər yan xaraba idi. İndi çox şükür, var olun, böyük, abad bir şəhərə çevrilibdir, qürurvericidir. Özü də təkcə Füzuli yox, bütün Qarabağ tikinti meydanıdır, hər yerdə yollar çəkilir, şəhərlər salınır, kəndlərin bünövrəsi qoyulur, infrastruktur layihələri icra edilir.

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Sakin:** Cənab Prezident, nağıllarımızda Qarabağa "Cənnətməkan Qarabağ" deyirlər, Sizin sayənizdə doğrudan cənnətə çevrilir. Allah canınızı sağ eləsin, işiniz avand olsun. Biz Sizə bu böyük işdə uğurlar diləyirik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, indi bütün şəhərlərdə ya tikinti gedir, ya da tikintiyə hazırlıq gedir. Mən əminəm ki, gələn il Cəbrayılda şəhər günü qeyd ediləcək. Bu il qeyd edilmədi, çünki orada hələ ki, vətəndaşlar yerləşməyib. Amma gələn ilin oktyabr ayına qədər, - çünki birinci azad olunmuş şəhər Cəbrayıl olmuşdu, - oktyabrın 4-də orada da şəhər günü keçiriləcək, hər yerdə - Şuşada birinci yaşayış məhəlləsi yəqin ki, 5-6 aya hazır olacaq. Birinci qrup keçmiş köçkünlər qayıdacaq. Ağdam da böyük tikinti meydançasıdır. Bu yaxınlarda Zəngilanda olarkən orada da, Qubadlıda, Kəlbəcərdə gələn ilin sonuna qədər keçmiş köçkünlər artıq şəhərə yerləşəcəklər.

# təkanverici qüvvəyə çevriləcək

## köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb







Bizdə bütövlükdə 8 şəhər, 92 kənd və qəsəbə Birinci Qayıdış Planına salınıb. Onların da böyük əksəriyyəti 2026-cı ilin sonuna qədər başa çatacaq. Yəni üç ildən sonra azad edilmiş ərazilərdə minimum, - biz belə təxmin edirik, - 140 min insan yaşayacaq.

**Sakin:** Çox böyük göstəricidir.

**Qadın sakin:** Üç ildir. Amma onlar otuz ildə bir mismar belə çalmamışdılar. Bilirdilər ki, onların deyil.

**Sakin:** Onlar dağıdırdılar.

**Prezident İlham ƏLİYEV:** Bəli, onlar nəinki buraları dağıtmışlar, vaxtilə yaşadıqları yaşayış məntəqələrində də heç bir iş görülməyib, sovet vaxtında necə var idisə, elə də qalıb. Mən oranın hər tərəfini dəfələrlə gəzmişəm. Adam o kəndlərin vəziyyətinə baxanda özünə sual verir ki, bəs bunlar hər il yüz milyonlarla dollar pul yığırdılar, telemarafon düzəldirdilər, Los-Ancelesdə, Fransada bəs o pulları hara xərcləyiblər? Onlardan gərək soruşsunlar.

**Sakin:** Serjik Sarkisyanın cibindədir, Robert Köçəryan xərcləyibdir.

**Prezident İlham ƏLİYEV:** Orada bir dənə də daş daş üstə qoyulmayıb, indi yəqin ki, insanlar oraya gedib görəcəklər, elə necə var idi, dağılmış, çox bərbad vəziyyətdə.

**Qadın müəllim:** Cənab Prezident, bu gün - oktyabrın 17-si Füzuli bayramı - Füzuli Şəhəri Günü biz füzulililər üçün həqiqətən də həm sevindirici, həm də qürurverici bir gündür. Bu gün Füzulimizin - 30 il işğal altında olan, erməni vandalizminə məruz qalan gözəl Füzulimizin yenidən daha gözəl, daha müasir şəkildə qurulması həqiqətən də bizim üçün çox xoşbəxt anlardır. Artıq biz Füzuli sakiniyik, artıq burada daimi yaşayırıq və Sizi eyni zamanda Mirzə Uluqbəy adına 1 nömrəli məktəbin kollektivi adından salamlayırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın müəllim:** Mən otuz il bundan öncə 13-14 yaşlarında bir yeniyetmə məktəbli kimi çıxdığım Füzulimə bu gün müəllim kimi qayıtmışam. Buna görə, əlbəttə ki, Sizə, başda Siz Ali Baş Komandanımız olmaqla, bütün Azərbaycan Ordusuna minnətdarıq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Məhz onların qanı-canı bahasına, - özünüz gözəl dediyiniz kimi, - qazilərimizin şücaəti bahasına biz bu gün öz doğma yurdumuzdayıq. Buna görə bir daha Sizə cansağlığı, uzun, sağlam ömür arzu edirik, Allah Sizi və Ordumuzu qorusun!

**Sakinlər:** Amin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Cənab Prezident, bu gün Siz çıxışınıza bayram əhvali-ruhiyyəsi ilə başladınız. Çünki 2023-cü il Azərbaycanda bayramlar ilidir. Birincisi, "Heydər Əliyev İli" elan olunması, bununla bağlı respublikanın bütün regionlarında keçirilən tədbirlər, Heydər Əliyev irsinin öyrənilməsi və gənclərə öyrədilməsi bir bayram əhvali-ruhiyyəsidir. İkincisi, Azərbaycan xalqının dəstəyi ilə Sizin apardığınız 20 illik ardıcıl siyasətin bu gün hesabat günüdür. Hesabatdan hər şey görünür, hər şey bilinir. Sizin apardığınız siyasətin ən kulminasiya nöqtəsi erməni separatizminin belini qırmağınızdır. Bütün dünya ermənilərinə "dəmir yumruğ"u göstərdiniz ki, yadınızda saxlayın, hamınızın beli burada qırılar Azərbaycanda başqa bir şey olsa. Artıq bu gün yoldaşlar dedilər, biz iki il bundan qabaq Sizinlə burada görüşəndə, binanın təməli qoyulanda biz deyirdik ki, yəqin bir on ilə burada bir bina tikilər-tikilməz. Ancaq bu gün bu binalar tikilib. Bu, bizim üçün çox qürurvericidir. Artıq Füzulidə yenidənqurma işlərinə, quruculuq işlərinə böyük start verilib. Biz bayaqdan camaatla söhbət edirik, deyirik ki, bu quruculuq işləri kosmik sürətlə gedir, Allah xalqımızı xətadan-bəladan uzaq eləsin, Sizə cansağlığı versin.

**Sakinlər:** Amin.

**Sakin:** Biz Sizin ətrafınızda çox sıx birləşmişik. Biz Sizin apardığınız siyasəti dəstəkləyirik. Füzulidə bugünkü bayram - Füzuli Şəhəri Günü münasibətilə biz Füzuli camaatı adından Sizi təbrik edirik və Sizin apardığınız siyasətdə uğurlar arzu edirik. Allah Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm. Bu gün Füzulidə, Qarabağın digər bölgələrində və Şərqi Zəngəzurda yerləşən şəhərlərdə gedən işlər, doğrudan da genişmiqyaslı işlərdir. Bunun mənbəyi də Azərbaycan mənbəyidir, yəni, biz heç kimdən bir manat kömək istəməmişik. Sağ olsun özbək qardaşlarımız gözəl məktəb tikdirdilər və qazax qardaşlarımız da indi Yaradıcılıq Mərkəzini inşa edirlər. Ondan başqa bizə bir dənə mismar da hədiyyə edilməyib.

Biz bu illər ərzində həm iqtisadiyyatı qurduq, həm ehtiyatlar yığdıq. Nə üçün? Bilirdik ki, bu gün gələcək, o vəsait bizə lazım olacaq və biz haraya xərcləyirdik - orduya. Birinci yerdə ordu xərcləridir, ikinci təhsil xərcləridir. Həmişə bizim büdcəmizdə bu iki əsas prioritet var idi. İndi ordu xərclərinə biz yenə də vəsait ayırmalıyıq. Çünki yumruq daim yerində olmalıdır. Ancaq eyni zamanda indi vəsaitin əsas hissəsi Qarabağın bərpasına gedir.

Ona görə heç kimdən asılı deyilik, heç kimdən heç nə istəmirik. Ona görə bəlkə də bəzi böyük dövlətlər bizdən narazıdırlar. Çünki onlar öyrəşiblər ki, gəlsinlər onların qabağında baş əysinlər, o da icazə versin, verməsin. Bəziləri hesab edirdilər ki, biz antiterror tədbirlərini apararkən heç kimdən soruşmamışıq. Yəni biz kimdən soruşmalıyıq?! Nəyi soruşmalıyıq?! Bəziləri indi deyirlər ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq. Bu da qəribədir ki, bir qrup ölkə özünü beynəlxalq ictimaiyyət sayır. Axı beynəlxalq ictimaiyyət deyəndə, 200-dən çox ölkə var, 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz. Onlar elə öyrəşiblər, özlərindən başqa heç kimi ictimaiyyət saymırlar və belə bir ittiham indi irəli sürülür ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq, antiterror tədbirləri keçirməklə onları aldatmışıq. Bu, çox zərərli məntiqdir. Biz öz doğma torpağımızda suverenliyi bərpa etmişik haqlı olaraq, bütün norma və prinsiplərə, beynəlxalq müstəvidə təsbit olunan prinsiplərə uyğun şəkildə. İndi bizi ittiham etməyə heç kimin haqqı yoxdur. Düzdür, cəhdlər var, yəqin ki, siz də izləyirsiniz, olub və olacaq.

**Sakin:** Özlərini ifşa edirlər.

**Prezident İlham ƏLİYEV:** İfşa edirlər, əlbəttə, biabır edirlər özlərini. Ona görə biz indi öz yolumuza davam edəcəyik. Yenə də deyirəm, biz bütün doğma torpaqlarımızı yenidən quracağıq. Buradan o dağlara baxanda belə bir gözəl mənzərə açılır, kənd təsərrüfatı üçün çox yaxşı imkanlar var. Yəqin ki, ilin sonunda Köndələnçay su anbarları artıq istifadəyə veriləcək. İki gün əvvəl Sərsəng su anbarının üstündə idim. Onu da atam o vaxt inşa etdirib.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah ölənlərinizə rəhmət eləsin. İnşa etdirib ki, yüz min hektar sahə, altı rayon - azərbaycanlıların yaşadıqları rayonlar su ilə təmin edilsin. Amma ermənilər nə etdilər, suyumuzu kəsdilər. Qışda açırdı ki, bütün yeri su bassın, yayda kəsirdi. Bax, erməni xisləti budur. Onu görsünlər, bu gün onların yanında yer alanlar, qoy görsünlər onlar nə ediblər. Biz indi bir kanal çəkmişik, ikinci sağ kanal da çəkiləcək, yəqin ki, maksimum ilyarım ərzində. Biz 100 min hektar torpağa su verəcəyik. İndi suyumuza da sahib olduq. Bizim su mənbələrimizin 25 faizi Qarabağ və Kəlbəcər-Laçın zonasında formalaşır. İndi Köndələnçay qayıtdı, Sərsəng, Suqovuşan qayıtdı, Xaçınçay qayıtdı, Həkəri suyu, indi Zabuxçay su anbarı inşa edilir, bir ilə hazır olacaq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham ƏLİYEV:** Bəli, suvarma ilə bağlı başqa layihələr də icra edilir. Onsuz da burada torpaqlar münbitdir.

**Sakin:** Çox bərəkətlidir.

**Prezident İlham ƏLİYEV:** Bərəkətlidir, özü də Füzuli torpağı xüsusilə. Amma su olandan sonra bura cənnət olacaq, gülüstan olacaq.

**Sakinlər:** İnşallah. Allah Sizi var eləsin. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Cənab Prezident, Vətən üçün üç oğul böyütdüm. Böyük oğlum Nicat Zalov Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaralanıb. Kiçik oğlum Fəqan Zalov 44 gün yaralı olaraq döyüşdü, müharibənin qurtarmasına saatlar qalmış Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Sakin:** Cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm ki, mənim oğullarımın şücaətini, qəhrəmanlığını yüksək qiymətləndirmisiniz. Bir də cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm, biz şəhid ailələrinə diqqət və qayğı göstərdiyinizə görə çox sağ olun, minnətdaram. Sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Salamat qalın.

**Sakinlər:** Sağ olun.

# "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 870; 2007, № 11, maddə 1088; 2008, № 2, maddə 49, № 4, maddə 249, № 6, maddə 464; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1164; 2016, № 12, maddə 2015; 2017, № 6, maddə 1026; 2018, № 7 (I kitab), maddə 1391; 2019, № 4, maddə 599; Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 966-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 15.6-cı maddə əlavə edilsin:

"15.6. Qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.".

**Maddə 2.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751; 2017, № 11, maddə 1967; 2018, № 6, maddə 1175, № 11, maddə 2193; 2019, № 7, maddə 1183; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895, № 12, maddə 1315; 2022, № 7, maddə 692; 2023, № 4, maddə 448) aşağıdakı məzmunda 11.4-cü maddə əlavə edilsin:

"11.4. Qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.".

**Maddə 3.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053; 2017, № 7, maddə 1288; 2019, № 1, maddə 28; 2020, № 5, maddə 527, № 11, maddə 1333; 2021, № 12, maddə 1310; 2022, № 12, maddə 1395; 2023, № 1, maddə 41) 3.4.11-ci maddəsinə "avtomobillər" sözündən sonra "və bu Qanunun 3.4.15-ci maddəsində nəzərdə tutulan mallar" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050, № 12, maddə 1939; 2020, № 5, maddə 551; 2021, № 3, maddə 224, № 6 (I kitab), maddə 576, № 9, maddə 976, № 12, maddə 1435; 2022, № 3, maddə 210) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Şura sədr də daxil olmaqla 9 üzvdən - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirindən, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (1 nəfər), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (1 nəfər), Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin (1 nəfər) və yerli fermerlər assosiasiyasının (1 nəfər) nümayəndələrindən ibarətdir.".

2. 3.3-cü bənd ləğv edilsin.

3. 3.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məhsul subsidiyası ilə bağlı hər il fermerlər Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən edilmiş müddətlərdə bu Qaydanın 3.8.1-ci yarımbəndində nəzərdə tutulan elektron bəyannaməni (müraciəti) və məhsulun tədarükçüyə təhvil verilməsi barədə sənədləri (məhsulun qəbul qəbzlərini və (və ya) Azərbaycan Respublikası Vergi Məcəlləsinin 71-1-ci və 71-2-ci maddələrinə uyğun olaraq tərtib edilmiş elektron qaimə-fakturaları və ya malların alış aktlarını), tədarükçülər isə təhvil aldıqları kənd təsərrüfatı məhsulunun növü və miqdarı barədə məlumatları SİS-ə daxil etməlidirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Sizi və bütün xalqınızı Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi, çoxdan gözlənilən tarixi ədalətin bərqərar olması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu mühüm siyasi hadisənin məhz Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd edildiyi və Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizin 20 illiyinin tamam olduğu ildə baş verməsi həqiqətən böyük rəmzi məna kəsb edir.

Siz ən mürəkkəb və çətin məsələlərin həll edilməsi, sözünüzlə əməlinizin üst-üstə düşməsi, Vətənə, xalqa və onun tarixinə dərin məhəbbətinizlə müasir siyasətçilərin bir çoxu üçün nümunəvi siyasi xadimsiniz.

Uca Yaradan bundan sonra da Sizə yar olsun, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi nəsib etsin!

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

# "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanun layihəsi Milli Məclisə daxil olub

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunun layihəsi və büdcə zərfinə aid sənədlər Milli Məclisə daxil olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əhalinin, o cümlədən vətəndaş cəmiyyəti institutlarının dövlət büdcəsi ilə bağlı məlumatlara əlçatanlığının təmin olunması, habelə parlamentin fəaliyyətində ictimai iştirakçılığın artırılması məqsədilə müvafiq qanun layihəsi parlament müzakirələrindən əvvəl Milli Məclisin rəsmi internet səhifəsində yerləşdirilir.

Məlumat üçün bildiririk ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanun layihəsi "Azərbaycan" qəzetinin 14 oktyabr 2023-cü il tarixli nömrəsində dərc olunub.

***"Azərbaycan"***

# Diplomatik korpusun nümayəndələri Füzuli Şəhəri Günü tədbirlərində



Azərbaycanda akkreditə olunan diplomatik korpus nümayəndələrinin Füzuli Şəhəri Günü münasibətilə Füzuli şəhərinə səfəri təşkil edilib. 70-ə yaxın diplomat, o cümlədən 30-a yaxın səfir şəhər günü tədbirləri çərçivəsində açılan sərgilərlə tanış olublar.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, mədəniyyət naziri Adil Kərimli, diplomatik korpusun nümayəndələri, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və qonaqlar əvvəlcə dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş "Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!" adlı sərgiyə baxıblar. Sonra "Ümummilli Lider Heydər Əliyev və Füzuli" adlı sərgi nümayiş olunub. Bundan başqa, "Yedditəpə kurqanları" abidəsində aşkarlanmış arxeologiya nümunələrinin sərgisi, "Azərxalça" ASC-nin sərgisi, "100 tar" adlı kompozisiya da qonaqlar tərəfindən maraqla qarşılanıb. Daha sonra qonaqlar milli mətbəximizin təamlarından dadıblar.







# Füzuli Şəhəri Günü təntənəli şəkildə qeyd olunub

Prezident İlham Əliyevin imzaladığı 2023-cü il 31 iyul tarixli sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 17 Oktyabr - Füzuli Şəhəri Günüdür.






AZƏRTAC xəbər verir ki, bu münasibətlə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə oktyabrın 17-də Füzulidə təntənəli şəhər günü tədbiri keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, deputatlar, diplomatik korpusun nümayəndələri və digər qonaqlar iştirak ediblər. Füzuli Şəhəri Günü çərçivəsində geniş qala-konsert təqdim olunub. Tanınmış incəsənət ustalarının ifasında xalq və bəstəkar mahnıları səsləndirilib. Dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş "Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!", "Ümummilli Lider Heydər Əliyev və Füzuli", "Füzuli rayonu - işğaldan öncə və işğaldan sonra" adlı, həmçinin Füzuli ərazisindəki "Yedditəpə kurqanları" arxeoloji abidəsindən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin yer aldığı sərgilərlə tanışlıq olub.

Daha sonra qonaqlar "Füzuli" guşəsinə baş çəkiblər. Burada Məhəmməd Füzulinin müxtəlif əsərləri əsasında hazırlanmış kompozisiyalar nümayiş olunub, şairin şeirləri səsləndirilib. Rəssam tərəfindən dahi şairin portreti yaradılıb.

Tədbir məkanında "100 tar" adlı kompozisiya təqdim olunub. Ustad tarzənlər, uşaq, yeniyetmə və gənclərdən ibarət 100 nəfər tarzənin ifası maraqla qarşılanıb.

Sonra tədbir iştirakçıları və qonaqlar Azərbaycan milli təamlarını dadıblar. Sonda atəşfəşanlıq və konsert proqramı olub.



Milli Məclisin iclasında

# Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni zirvələri fəth edəcək

## Parlament Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubu ünvanladı

Oktyabrın 17-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan spiker Sahibə Qafarova bildirib ki, iclasımız ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirilir. Oktyabrın 18-də biz Müstəqilliyin Bərpası Gününü qeyd edəcəyik. Bildiyiniz kimi, son yüz ildən artıq dövrdə Azərbaycan xalqı siyasi müstəqillik imkanına iki dəfə nail olub. 1918-ci il mayın 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bilib.





Milli Məclisin Sədri qeyd edib ki, 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də, əslində, eyni tale yazılmışdı. Ötən əsrin 90-cı illərinin əvvəlləri ölkəmizin ağır problemlər qarşısında qaldığı bir dövrdür. O zaman hakimiyyətə gəlmiş iqtidar cəmi bir il ərzində Azərbaycanı siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ölkə vətəndaş müharibəsi və dağılmaq həddinə gəlib çıxmışdı. Dövlət həyatının bütün sahələrində hərc-mərclik, ordu adı ilə yaradılan silahlı dəstələrin özbaşınalığı vəziyyətin gərginliyini daha da artırırdı. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına əlverişli şərait yaradırdı. Yüz minlərlə soydaşımız doğma yurdlarını tərk etməyə məcbur olurdu.

Müstəqil Azərbaycan dövlətinin iflasa uğraması təhlükəsi tam real idi. Taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol vermədi.

1993-cü il iyunun 15-də ali dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi.

Spiker xatırladıb ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibəti ilə bu il mayın 16-da və iyunun 14-də Milli Məclisin xüsusi iclaslarında dünya miqyaslı siyasi və dövlət xadiminin misilsiz xidmətlərindən minnətdarlıq duyğuları ilə danışıldı. Qeyd edildi ki, xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində reallaşdıra bilib. Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq, Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən keçirərək sabitlik və inkişaf dövrünə çatdırdı.

Bugünkü müasir Azərbaycan Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nişanəsidir.

Milli Məclisin Sədri bildirib ki, parlamentdə biz həmişə qürurla söyləyirik ki, Ulu Öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlanıb. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun bu binada atdığı addımlar, gördüyü tədbirlər parlamentarizm və dövlətçilik tariximizin şanlı səhifələrini təşkil edir.

Spiker diqqətə çatdırıb ki, Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində yaradıcı surətdə davam etdirən möhtərəm Prezident İlham Əliyevin daxili və xarici siyasəti ölkəmizə heyrətamiz uğurlar gətirib.

Spiker qeyd edib ki, Milli Məclisin oktyabrın 12-də keçirilən xüsusi iclasında da vurğulandığı kimi, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxıb. Cəmiyyət və dövlət həyatının bütün sahələrində yeniləşmə və yüksəliş dövrü yaşanıb. Dövlət idarəçiliyi sistemi təkmilləşdirilib, Birinci vitse-prezident institutu təsis edilib. Məmnunluqla qeyd etmək olar ki, möhtərəm cənab Prezidentin ən yaxın silahdaşı olan görkəmli siyasi və dövlət xadimi Mehriban xanım Əliyeva bu məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirir.

Sahibə Qafarova vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli tarixi torpaqlarımızın Ermənistanın 30 illik işğalından qurtarılması, tarixi ədalətin, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açıb.

Oktyabrın 15-də cənab İlham Əliyevin Xankəndi, Ağdərə, Xocavənd, Xocalı şəhərlərində, Əsgəran qəsəbəsində Dövlət Bayrağını ucaltmasını bütün xalqımız böyük qürurla izlədi. Üç il öncə eyni duyğuları biz Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə və digər şəhərlərdə bayrağımız yüksələrkən yaşamışdıq.

Spiker qeyd edib ki, möhtərəm Prezidentin Xankəndi şəhərində etdiyi proqram xarakterli çıxış onun Ulu Öndər Heydər Əliyev və xalqımız qarşısında bir növ hesabatı idi. Cənab Prezidentin də dediyi kimi, onun rəhbərliyi ilə 20 il ərzində görülən işlər Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialının artırılmasına, torpaqlarımızın işğaldan azad edilməsinə, xalqımızın firavan həyatının qurulmasına yönəlib. Həyata keçirilən dövlət siyasəti milli maraqlarımızın qorunmasını və irəli aparılmasını təmin edib. Düşmən üzərində qazanılan möhtəşəm qələbə Ulu Öndərin 100 illik yubileyinə ən böyük töhfə oldu.

Spiker deyib ki, cənab Prezident çıxışında separatçılara havadarlıq edən dövlətlərə, Ermənistanda revanşizm fikrindən əl çəkməyən qüvvələrə də mesaj verdi. Onları Vətən müharibəsindən və antiterror tədbirlərindən dərs almağa çağırdı.

Xalqımız əmindir ki, biz Qarabağa həmişəlik qayıtmışıq, möhtərəm Prezidentin qaldırdığı Dövlət Bayrağı bu qədim diyarımızda əbədi dalğalanacaqdır.

Milli Məclisin Sədri xatırladıb ki, dövlət başçısının fərmanına əsasən, oktyabrın 17-də Füzuli Şəhəri Günü qeyd edildi. Ardınca Zəngilan Şəhəri Günü qeyd olunacaq. Düşmən tapdağından azad edilmiş bütün şəhərlərimizin günlərini biz hər il bayram kimi qeyd edəcəyik. Möhtərəm Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da daim irəli gedəcək və yeni-yeni zirvələri fəth edəcəkdir.

Sonra spiker təklif edib ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın və onlara Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində yeni uğurlar diləyək. Spikerin təklifi alqışlarla qarşılanıb.

Milli Məclisin Sədri bayram münasibəti ilə təbriklərini çatdırdıqdan sonra tariximizin kədər dolu bir gününü də yada salıb. O, bildirib ki, üç il öncə erməni silahlı birləşmələri Gəncə şəhərinin mərkəzini qadağan olunmuş silahlar, o cümlədən ballistik raketlər ilə atəşə tutmuşlar. 15 nəfər dinc sakin həyatını itirmiş, 79 mülki şəxs yaralanmışdı.

Spiker həm Gəncə şəhərində, həm də Azərbaycanın digər yaşayış məntəqələrində erməni terroru nəticəsində həlak olmuş dinc sakinlərin yaxınlarına səbir, şəhidlərimizə Allahdan rəhmət diləyib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Komitə sədri Siyavuş Novruzov, deputatlar Tural Gəncəliyev, Fazil Mustafa, Ceyhun Məmmədov, Nizami Səfərov, Sahib Alıyev, Əli Məsimli, Tahir Kərimli, Bəhruz Məhərrəmov, İlham Məmmədov, Musa Qasımlı çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 15-də Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ölkəmizin üçrəngli Dövlət Bayrağını ucaltmasını əlamətdar tarixi hadisə kimi dəyərləndiriblər. Bildirilib ki, dövlət başçısının prinsipial və qətiyyətli siyasəti sayəsində Azərbaycan xalqının səbirsizliklə gözlədiyi gün artıq gerçəkləşdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu. Ali Baş Komandanın rəhbərliyi, onun ətrafında birlik və həmrəylik nümayiş etdirən xalqımızın əzmi və iradəsi nəticəsində düşmən məğlub edildi.

Deputatlar Azərbaycan Prezidentinin Xankəndidə səsləndirdiyi fikirlərin, verdiyi mesajların mühüm əhəmiyyət daşıdığını vurğulayaraq, bu şanlı qələbənin nəticəsini qoruyub saxlamaq, şərəfli tarixi missiyasını davam etdirmək yolunda cənab İlham Əliyevə uğurlar arzulayıblar.

Millət vəkilləri bəzi aktual məsələlər barədə də öz fikirlərini açıqlayıblar.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyində 16 məsələ var. O, birinci məsələnin "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin olduğunu deyib. Spiker qeyd edib ki, inzibati ərazi bölgüsü ilə bağlı olduğuna görə, layihə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsi barədə məlumat verib. O, bildirib ki, ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan sənəddə Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərində bu qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq dəyişikliklər nəzərdə tutulub. Dəyişikliklərə əsasən, Bakı şəhəri Binəqədi rayonunun Binəqədi qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Binəqədi qəsəbəsinin ərazisində 1213 ha torpaq sahəsi, Abşeron rayonunun inzibati ərazisində yerləşən 375 ha və 2223,67 ha torpaq sahələri Sumqayıt şəhərinin inzibati ərazisinə verilir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 12 məsələsi ikinci oxunuşda olan qanun layihələridir.

İclasda Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Energetika haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuşda layihə barədə ətraflı məlumat verildiyini, sənədin deputatlar tərəfindən dəstəkləndiyini söyləyib. Komitə sədri bildirib ki, qanunun qəbulu energetika sahəsinə investisiyanın cəlb edilməsinə, bərpaolunan enerjinin təşviqinə, ekoloji tarazlıq pozulmadan enerjinin hasilatı, emalı, istehsalı sahələrinin daha da inkişaf etdirilməsinə xidmət edəcək.

Yeni qanun layihəsi energetika sahəsində fəaliyyətin ümumi hüquqi, iqtisadi və idarəetmə əsaslarını, habelə enerji təhlükəsizliyinin təmin edilməsinin, sağlam rəqabət mühitinin formalaşdırılmasının, davamlı iqtisadi inkişafın dəstəklənməsinin, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsinin mexanizmlərini müəyyən edir.

Müzakirələr zamanı deputat Vahid Əhmədov sənəd barədə bəzi fikirlərini, qeyd və təkliflərini səsləndirib.

Komitə sədri Sadiq Qurbanov qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb.

O, bildirib ki, layihə lisenziyanın verilməsi şərtlərinin Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən tələblərlə, icazələrin verilməsi şərtlərinin isə Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilən tələblər əsasında tənzimlənməsini müəyyənləşdirir. Dəyişikliklərdə qüvvədə olan qanunda bəzi dəqiqləşdirmələrin aparılması və digər normativ hüquqi aktlara uyğunlaşdırılması da nəzərdə tutulur. Birinci oxunuşdan sonra layihə barədə heç bir irad və təklifin daxil olmadığı da qeyd edilib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Mülki Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Deputat birinci oxunuşda layihə barədə geniş məlumat verildiyini, heç bir əlavə rəy və təklifin olmadığını söyləyib, sənədin səsə qoyulmasını xahiş edib.

Qeyd edilməlidir ki, sənəd "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə 2022-ci il 2 dekabr tarixli 665-VIQD nömrəli qanunun icrası ilə əlaqədar hazırlanıb. Layihədə müvafiq dəyişikliklər edilməklə, icra sənədləri sayılan aktların məzmununun "İcra haqqında" Qanunda icra sənədləri üçün müəyyən edilmiş tələblərə uyğunlaşdırılması təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti iki məsələnin cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu bildirib. O, qeyd edib ki, bu məsələlər "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov həmin qanun layihələrini təqdim edib. O, birinci oxunuş zamanı hər iki sənəd barədə ətraflı məlumat verildiyini söyləyib, səsləndirilən bəzi qeydlərə aydınlıq gətirib, layihələrin ümumilikdə deputatlar tərəfindən dəstəkləndiyini bildirib.

Qeyd olunmalıdır ki, "Polis haqqında" qanunda dəyişiklik edilməsi barədə sənəd daxili işlər orqanları üçün kadr hazırlayan təhsil müəssisələrində təhsil alan şəxslərin kursant adlandırılması, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi isə daxili işlər orqanları üçün kadr hazırlığı sahəsinin hüquqi tənzimlənməsi məqsədilə hazırlanıb.

Deputatlar Fəzail Ağamalı və Aydın Mirzəzadə dəyişikliklərdə əks olunan məsələlərin əhəmiyyəti barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, bildirib ki, sənəddə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O, bildirib ki, sənəddə müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsi nəzərdə tutulur. Qeyd edilib ki, dəyişiklik arxiv xidmətlərinin daha operativ icrasının təmin olunmasına yönəlib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Sonra Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihənin birinci oxunuşu zamanı heç bir əlavə təklifin olmadığını deyib və səsə qoyulmasını xahiş edib.

Sənəd ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili, onların fəaliyyətinin effektli həyata keçirilməsi, ovçuluq biletlərinin verilməsi prosedurunun sadələşdirilməsi, normalararası uyğunsuzluğun aradan qaldırılması məqsədilə hazırlanıb.

Məsələ ilə bağlı deputat Sabir Rüstəmxanlı bəzi qeydlərini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, bildirib ki, sənəddə təklif olunan dəyişikliklər valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş və ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edəcək.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verərək bildirib ki, ölkə Prezidentinin müvafiq fərmanına uyğun olaraq, sənəddə universal poçt rabitəsi xidmətlərinin tariflərinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilməsi nəzərdə tutulub.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, bildirib ki, layihədə fiziki şəxs tərəfindən şəxsi istehlak məqsədilə ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun məbləğlərinin azaldılması nəzərdə tutulur. Bununla yanaşı, sənəddə "Telekommunikasiya haqqında" qanuna əsasən dəqiqləşdirmə xarakterli düzəliş edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, diqqətə çatdırıb ki, qanun layihəsində təklif olunan dəyişikliklər dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Komitə sədri ötən müddət ərzində sənədin mətnində əlavə heç bir dəyişikliyin olmadığını deyib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin son 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş qanun layihəsində müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsinin qaydasının təkmilləşdirilməsi nəzərdə tutulur. Belə ki, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsini təşkil edən çağırış komissiyalarının qərarlarının verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yekun tibbi müayinənin aparılması nəzərdə tutulur. Yekun tibbi müayinənin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

O qeyd edib ki, təklif olunan dəyişikliyin qəbulu nəticəsində müddətli həqiqi hərbi xidmətə çağırış prosesində şəffaflığın və vətəndaş məmnunluğunun artırılması, çağırışçıların sağlamlıq vəziyyətinin daha dəqiq dəyərləndirilməsi üçün zəruri şəraitin yaradılması, qeyd olunan fəaliyyətin elektron informasiya sistemləri vasitəsilə təşkili və icrası proqnozlaşdırılır.

Məsələ ilə bağlı müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Tahir Kərimli, Aydın Hüseynov, Sədaqət Vəliyeva bəzi qeydlərini bildiriblər.

Komitə sədri Ziyafət Əsgərov çıxışlarda səsləndirilən fikirlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. O, bildirib ki, qanun layihəsi mühasibat uçotunu məcburi qaydada elektron formada aparacaq mühasibat uçotu subyektlərinin dairəsinin müəyyən edilməsi məqsədilə hazırlanıb. Sənəddə təklif olunan əlavəyə əsasən, bəzi mühasibat uçotu subyektlərində, o cümlədən iri sahibkarlıq subyektlərində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq, orta sahibkarlıq subyektlərində, qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və digər belə sazişlər və ya qanunlar, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti haqqında qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərində, illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu qanuna uyğun olaraq dərc etməli olan publik hüquqi şəxslərdə mühasibat uçotu elektron formada aparılmalıdır.

Qeyd olunub ki, bu müddəa Vergi Məcəlləsində təsbit olunan elektron auditin aparılmasına dəstək verəcək, həmçinin layihədə qeyd olunan vergi ödəyiciləri tərəfindən müvafiq məlumatların aidiyyəti üzrə təqdim edilməsi sahəsində operativliyi artıracaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Əli Hüseynli qanun layihəsi ilə bağlı məlumatında onun rəhbərlik etdiyi komitə tərəfindən sənədə daxil olan Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləyə təklif olunan dəyişikliklərə müsbət rəy verildiyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli qanun layihəsinin təmsil etdiyi komitədə müzakirə edildiyini və dəstəkləndiyini bildirib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev layihəyə daxil olan "Elektron imza və elektron sənəd haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, "elektron sənəd" anlayışının tərifinin yeni redaksiyada verildiyini söyləyib. O, rəhbərlik etdiyi komitədə məsələyə baxıldığını və müsbət rəy verildiyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***"Azərbaycan"***

# Ceyhun Bayramovla Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi arasında telefon danışığı olub




Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Ceyms Kleverli arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyinin perspektivləri, habelə mövcud regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədəki mövcud vəziyyət barədə ətraflı məlumat verərək Qarabağ bölgəsində tərəfimizdən aparılan lokal antiterror tədbirləri nəticəsində regionda sülh quruculuğu və sabitliyə davamlı təhdid törədən qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyulduğunu bildirib.

Ərazilərimizdəki qeyri-qanuni silahlı qüvvələrin tərk-silah edilməsi nəticəsində erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası prosesinin qarşısında duran maneələrin aradan qaldırıldığı, bu xüsusda Azərbaycan Hökumətinin erməni sakinlərin sosial, humanitar, infrastruktur ilə bağlı ehtiyaclarının qarşılanması istiqamətində yerli erməni sakinlərin nümayəndələri ilə təmasda olduğu, bu istiqamətdə baxış və planlarımızın açıqlandığı və sözügedən planların həyata keçirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmçinin 30 ilə yaxın davam edən münaqişənin bitməsi, habelə bölgədə sülh və təhlükəsizliyə real təhdid olan erməni silahlı qüvvələrinin aradan qaldırılmasından sonra sülh üçün yaranmış tarixi imkanlara xələl gətirən, ərazi bütövlüyümüz və suverenliyimizə qarşı yönələn addımların sülh səylərinə töhfə vermədiyi, bu xüsusda beynəlxalq ictimaiyyətin konstruktiv yanaşmasının hər zamankından daha vacib olduğunu qeyd edib.

Dövlət katibi Ceyms Kleverli bölgədə sülh və etimad quruculuğu səylərinin davam etdirilməsinin, bu xüsusda Azərbaycan və Ermənistan arasında sülh və normallaşma gündəliyi üzrə danışıqların davam etdirilməsinin vacibliyini vurğulayıb.

Telefon danışığı gedişatında həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *İsveçrə səfiri:* "Azərbaycanla bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıyıq"

Oktyabrın 17-də xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Tomas Ştehlini qəbul edib.



Görüş zamanı səfir Tomas Ştehli etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüşdə Azərbaycan və İsveçrə arasında siyasi, iqtisadi, ticarət və bir sıra digər sahələri özündə ehtiva edən ikitərəfli münasibətlər gündəliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, həmçinin cari regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin, siyasi dialoqun və siyasi məsləhətləşmələrin mütəmadi əsasda aparılmasının vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov ölkəmizin erməni silahlı qüvvələrinə və ərazimizdəki qondarma rejimə qarşı həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərini şərtləndirən amillər, o cümlədən Ermənistanın son dövrlər Azərbaycana qarşı törətdiyi təxribatlar və ərazilərimizdə qeyri-qanuni erməni silahlı qüvvələrinin yaratdığı təhdidlər barədə qarşı tərəfə məlumat verib və yüksək dəqiqliklə aparılan antiterror tədbirləri zamanı mülki şəxslərin hədəf alınmadığını bildirib.

Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin reinteqrasiyası istiqamətində müvafiq işlər aparıldığı və bu məqsədlə elektron portal yaradıldığı diqqətə çatdırılıb.

Erməni sakinlərin Azərbaycan ərazisini tərk etməsinin hər hansı bir məcburi yerdəyişmə ilə əlaqədar olmadığı qeyd olunaraq, BMT rəsmilərinin bölgəyə son səfəri sonrası verilən açıqlamaların da bunun bariz nümunəsi olduğu bildirilib. Səfir Tomas Ştehli ölkəsinin bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edərək, diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Azərbaycan XİN:* "Ermənistan baş nazirinin davam edən aqressiv ritorikası sülh perspektivlərinə xələl gətirir"

"Oktyabrın 17-də Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentinin sessiyası zamanı səsləndirdiyi bəyanat növbəti dəfə bu ölkənin Azərbaycana qarşı təcavüzkar ritorika və ittihamları davam etdirərək sülh sazişi ilə bağlı perspektivləri daha da sarsıtmaqda qərarlı olduğunu nümayiş etdirdi".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin N.Paşinyanın Avropa Parlamentində çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

Şərhdə deyilir: "Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarından əl çəkmədiyi bir vaxtda özünü sülhsevər, demokratik, beynəlxalq hüquqa hörmət edən ölkə kimi təqdim edən Ermənistandan bu cür iddiaları eşitmək təhqiramizdir.

30 ilə yaxın müddət ərzində bir milyona qədər azərbaycanlının fundamental hüquqlarını pozan, azərbaycanlılara qarşı soyqırımı və kütləvi qırğınlar törətmiş bir ölkə olan Ermənistanın Azərbaycanı könüllü olaraq Ermənistana getmiş yerli ermənilərin "etnik təmizləməsi"ndə ittiham etməsi əsassız olmaqla yanaşı, regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə açıq şəkildə ziddiyyət təşkil edir. Bu həmçinin 21 sentyabrda Ermənistan ictimaiyyətinə müraciətində Qarabağ bölgəsindəki erməni sakinlərin təhdidlərlə üzləşmədiyini bildirən Ermənistan baş nazirinin bəyanatlarının bir-biri ilə nə qədər uyğunsuz olduğunu nümayiş etdirir. Eyni zamanda Ermənistanın tarixin və faktların açıq şəkildə saxtalaşdırılmasında nə qədər məşhur olduğu diqqətə alındıqda, sözügedən ölkənin baş nazirinin bu cür ziddiyyətli açıqlamalarını eşitmək təəccüb doğurmur.

Qranada görüşünün yekun sənədindəki müstəqillik, suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, güc tətbiq edilməməsi və güc təhdidindən imtina prinsiplərinə istinad edən baş nazir Nikol Paşinyan Ermənistanın bu prinsipləri baş nazirin hakimiyyətdə olduğu 5 il də daxil olmaqla 30 ildən artıq müddətdə pozmasına baxmayaraq, 44 günlük müharibədən dərhal sonra məhz Azərbaycanın Ermənistana 5 baza prinsipi təqdim etdiyini unudur.

Laçın yolunun guya "eksterritoriallığ"ı ilə bağlı baş nazirin iddialarına gəldikdə isə Ermənistanın məkrli addımlarının qarşısını almaq üçün sərhəd nəzarət-buraxılış məntəqəsini təsis etməklə hərəkətin təhlükəsizliyini təmin etmək öhdəliyini yerinə yetirən Azərbaycandan fərqli olaraq, Ermənistanın hər vəchlə baş nazirin də birgə imzaladığı üçtərəfli Bəyanata zidd olaraq, bu yoldan sui-istifadə etdiyini xatırlatmaq lazımdır. Azərbaycanın öz ərazisindəki bütün yollar üzərində suverenliyə malik olduğu və bunun əksini sübut etmək cəhdlərinin əsassızlığı qeyd edilməlidir.

Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycana qarşı təcavüz törətdiyini və ərazilərimizi işğal etdiyini diqqətə aldıqda, Ermənistan baş nazirinin ərazi bütövlüyünə və delimitasiyaya hörməti kvadratkilometrlə ölçməyə çağırış etməsi ciddi deyil. Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt başqa ölkələrin ərazisinə iddia etməyib.

Ermənistanın Azərbaycan və Türkiyəni blokadada ittiham etməsinin reallıqla heç bir əlaqəsi yoxdur. Ermənistanın hərbi təcavüz və ərazi iddiaları səbəbindən regional layihələrdən təcrid olunması hər kəsə yaxşı məlumdur. Üstəlik, görünür ki, Ermənistan Azərbaycanın öz ərazilərini azad etməsindən sonra da buna son qoymaq niyyətində deyil. Ermənistan tərəfi vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək, eyni zamanda bu istiqamətdə təhlükəsizliyi təmin etmək öhdəliyinin mövcud olduğunu yaxşı bilir. Ermənistanın həmçinin Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisini təmin etməklə bağlı öhdəliyi mövcuddur. Təəssüf ki, bu ölkə belə bir fürsəti növbəti dəfə əldən verir. İran İslam Respublikasının ərazisi üzərindən Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək avtomobil və dəmir yollarının tikintisi haqqında sazişin imzalanması bir daha Ermənistandan fərqli olaraq, Azərbaycanın alternativ marşrutlardan istifadə etməklə regionda nəqliyyat dəhlizlərinin inkişafına daim müsbət töhfə verdiyini göstərir.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, Azərbaycanın Qarabağ regionunda qondarma erməni rejiminin və qanunsuz silahlı qüvvələrin yaratdığı təhlükəni aradan qaldırdıqdan sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi imkanların yarandığı bir dövrdə Ermənistan baş nazirinin davam edən aqressiv ritorikası sülh perspektivlərinə xələl gətirir".



## MÖHTƏŞƏM 20 İL 2003 2023

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

## Qərbi Azərbaycan İcmasının təbriki

**Möhtərəm cənab Prezident!**

Zati-alinizin rəhbərliyi altında tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan ötən 20 il ərzində böyük inkişaf və tərəqqi yolu keçmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" sözləri öz həqiqi təsdiqini tapmışdır. Sizin müdrik uzaqgörənliklə yaratdığınız bugünkü müasir Azərbaycan on illər ərzində həllini gözləyən problemləri geridə qoyaraq öz suverenliyinə və ərazi bütövlüyünə qovuşmuş, dünya birliyində öz layiqli yerinə ucalmışdır.

Ölkəmizdə bütün sahələrdə əldə olunan tarixi uğurların hər biri zati-alinizin gərgin zəhmətinin və titanik əməyinin bəhrəsi olmuşdur. Regionların sosial-iqtisadi inkişafından başlayan yol Azərbaycanın təkcə bölgələrinin tərəqqisinə deyil, hər bir azərbaycanlının rifahının yaxşılaşmasına, onun mənəvi baxımdan yenilənməsinə, zənginləşməsinə və nəhayət, qalib dövlətin vətəndaşına çevrilməsinə gətirib çıxarmışdır.

Son illərə qədər bir milyondan artıq qaçqın və məcburi köçkünün vətəni olan Azərbaycan rəhbərliyiniz altında qüdrətli dövlət kimi öz çətinliklərinin öhdəsindən gələ bilmiş və ərazi bütövlüyünə qovuşmaq, hər bir vətəndaşının hüquqlarını təmin etmək üçün başlanan haqq savaşını Zəfərlə sona çatdırmışdır. Bunun nəticəsində yüz minlərlə vətəndaşımızın doğma vətənə qovuşmaq arzusu reallaşmışdır.

Uzun müddət ərzində Qarabağda mövcud olmuş cinayətkar xunta rejimi zamanında verdiyiniz müdrik qərarla həyata keçirilən antiterror tədbirləri nəticəsində məhv edilmiş və Azərbaycanın ay-ulduzlu bayrağı zati-aliniz tərəfindən Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə ucaldılmışdır.

**Möhtərəm cənab Prezident!**

Zati-aliniz ölkənin iqtisadiyyatını, sənayesini, ordusunu, insan potensialını davamlı şəkildə inkişaf etdirərək məqsədyönlü şəkildə bizi bugünkü əzəmətli Azərbaycanın vətəndaşı olmağa hazırlamışdır. Siz Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixi və dövləti üçün olduqca böyük əhəmiyyət kəsb edən vəsiyyətini yerinə yetirərək ölkəmiz və insanlarımız üçün yeni yol xəritəsi müəyyənləşdirmisiniz.

Əminik ki, Ermənistan tərəfindən onilliklər boyu soyqırımı, deportasiya və təhdidlərə məruz qalmış, bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan yüz minlərlə azərbaycanlının doğma vətəninə qayıtmaq hüququnun təmin edilməsi üçün başlatdığınız yeni haqq savaşı bizi daha böyük hədəflərə çatdıracaqdır. Zati-alinizin Müzəffər Ali Baş Komandan kimi bu məsələdə ortaya qoyduğu prinsipial mövqe, xüsusilə 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında icma üzvləri ilə keçirdiyiniz görüş məsələnin önəmindən xəbər verir.

Siz Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına möhkəm və birmənalı dəstəyinizi ifadə edərək hər bir azərbaycanlının Prezidenti olduğunuzu bir daha isbat etmisiniz. İdeyanız əsasında hazırlanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyası bu gün planlı şəkildə həyata keçirilir və bizi öz vətənimizə qayıdacağımız müqəddəs günə yaxınlaşdırır.

Rəhbərliyiniz altında ölkəmizin regionun önəmli güc mərkəzinə çevrilməsi, əldə edilən nailiyyətlərin miqyasının böyüklüyü, dünya birliyində davamlı yüksələn mövqeyimiz bizi daha işıqlı və xoşbəxt gələcək gözlədiyindən xəbər verir. Biz gələcəyə Prezident, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında getməkdən böyük qürur və fəxarət duyuruq.

Dərin hörmətlə,

***Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov,***

***Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanov,***

***Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov,***

***Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov,***

***Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı,***

***Ziyalılar Şurasının sədri, professor Elxan Hüseynov,***

***Gənclər Birliyinin sədri, Milli Məclisin deputatı Ramin Məmmədov,***

***Qəyyumlar Şurasının sədri Mürvət Həsənli***

# Azərbaycan qətiyyətli mövqe nümayiş etdirən müstəqil dövlətdir

"Bu gün Azərbaycan güclü, qətiyyətli mövqe nümayiş etdirən müstəqil dövlətdir. Keçdiyimiz yol, bu yolda qarşımıza çıxan maneələr müstəqillik arzusunu boğa bilmədi. Çünki Azərbaycan sadəcə sözdə azad olmadı, real işdə, dövlət quruculuğunda, müstəqillik yolunda inamla addımlayan ölkə olduğunu dünyaya nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyev dövlətin suverenliyini tam təmin edən mükəmməl siyasi kurs həyata keçirdi, Prezident İlham Əliyev onu inkişaf etdirərək, yeni uğurlara imza atdı. Milli maraqlar, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu uğurla davam etdirdi".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Azərbaycanın 1991-ci il oktyabrın 18-də Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən danışan deputat bildirib ki, əsrlərboyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri: dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir.

Ceyhun Məmmədovun sözlərinə görə, dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır. 1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti ilə üz-üzə qalmışdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılaraq atəşkəsin elan edilməsi və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatlara zəmin yaratdı.

Deputat vurğulayıb ki, Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etdi: "Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə Dağlıq Qarabağda başlayan erməni separatizmi, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi".

Deputat əlavə edib ki, bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı: "Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi".

Ceyhun Məmmədov bildirir ki, bu gün Ulu Öndərin bizlərə əmanət qoyduğu güclü Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlara imza atır və dünyanın diqqətini özünə cəlb edir. İlham Əliyev Azərbaycanın inkişafı haqqında qeyd etmişdir: "Bizim bütün planlarımızın həyata keçməsi üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir".

Deputat deyir: "Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Azərbaycan dövlətinin öz siyasi dəst-xəti, dövlətçilik siması, inkişaf yolu var. Dünyada hər bir ölkənin əsas göstəricisi və gücü ilk növbədə onun iqtisadi vəziyyəti ilə ölçülür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çevik, müstəqil siyasət ölkəmizi davamlı tərəqqiyə aparır. İqtisadi sahədə qazanılan uğurlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısının innovasiyayönümlü, yüksək rəqabətqabiliyyətli, istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çatdırmışdır".

Ceyhun Məmmədov söyləyib ki, son hadisələr prezident-xalq-ordu birliyini bir daha nümayiş etdirdi. Xalqımız tam əmin idi ki, dövlətimizin qətiyyətli mövqeyi, ordumuzun gücü, qüdrəti sayəsində uğurla həyata keçirilən əks-hücum əməliyyatları otuz ildən artıq davam edən işğala son qoyacaq! Ədalətsizliyə son qoyacaq! Bu əks-hücum əməliyyatı eyni zamanda insanlarda vətənə bağlılığı, illərdən bəri işğal altında olan torpaqlarımızın azad olunması arzularının reallaşması, gerçəkləşməsi deməkdir. Möhtərəm Prezident daim bəyan edirdi ki, Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda yetişməli, dövlət maraqlarının qorunması, həqiqətlərimizin təbliği onların ideoloji fəaliyyətinin əsasını təşkil etməli, azərbaycançılıq məfkurəsinə söykənməlidir.

"18 Oktyabr Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür. Müstəqillik xalqın taleyinə yazılmış ən böyük xoşbəxtlikdir. Bu gün qarşıda duran ən vacib vəzifə bu müstəqilliyi möhkəmləndirmək və qorumaqdır. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi müstəqilliyimizin sübutudur", - deyə deputat vurğulayıb.

Ceyhun Məmmədov həmçinin əlavə edib ki, bu gün inamla deyə bilərik ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət nəticəsində Azərbaycan Respublikası müstəqil dövlət kimi tam formalaşaraq möhkəmlənib. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Müstəqilliyimizin Xankəndi zirvəsi

## İstiqlaliyyətimizin bərpasının ildönümünü xalqımız bütöv Azərbaycanın qüruru ilə qeyd edir



*Əvvəli 1-ci səh.*

Azərbaycanlı olmağımızla fəxr edirik!

Müasir müstəqil Azərbaycanın bünövrəsini qoyan və onu inkişaf etdirən Ulu Öndər Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhları qarşısında baş əyirik!

20 illik qısa zaman dilimine əsrlərin fövqündə olan zəfərlər sığdıraraq Azərbaycan xalqını başıuca, qürurlu, bəxtəvər edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə tükənməz minnətdarlıq duyuruq!

### Bütöv Azərbaycan naminə

Son 35 ildə ağır məhrumiyyətlərdən, çətinliklərdən, sınaqlardan çıxaraq addım-addım əbədi bərqərar olduğumuz qələbə zirvəsinə yetmişik.

1988-ci ildən başlayaraq xalqımıza zülmlər, ağrı-acılar yaşadan erməni faşizmindən, terrorundan, separatizmindən qurtulmuşuq. Sərsəm "miatsum" ideyasının arxasınca düşərək millətimizin qatilinə çevrilən erməni canilərini haqq-ədalət qarşısında cavab verməyə məcbur etmişik.

Torpaqlarımızın bir qərinəlik işğalına son qoyaraq yüz minlərlə keçmiş məcburi köçkünü vətəndə qəribçilik yükündən azad edərək Qarabağ və Şərqi Zəngəzura yeni həyat qaytarmışıq.

Ən ümdəsi müstəqil ölkəmizin bütün ərazilərində bayrağımızı dalğalandırmışıq, Qarabağda suverenliyimizi tam bərpa edərək bütöv Azərbaycan olmuşuq.

Amma hər biri barəsində cild-cild kitablar yazılacaq bu şanlı və şərəfli qələbələri əldə edənə qədər xeyli ağır, çətin, mürəkkəb, məsuliyyətli və mübarizələrlə dolu bir yol qət etmişik.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevlə birgə qarşılaşdığımız təhlükədən xilas yoluna qədəm qoyan Azərbaycan Prezident İlham Əliyevin 20 illik yorulmaz fəaliyyəti, şəxsi əzmi və qətiyyəti sayəsində milli maraqlarını təmin edərək tarixindəki ən böyük qələbələrə yetişib.

### Xilas günü

Qarabağda erməni separatizminin baş qaldırdığı və xalqımızın təhlükə ilə üzləşdiyi məşum bir zamanda - 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanaraq "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdi.

Amma gənc respublika həmin dövrdə ağır sınaqlarla, faktiki olaraq müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Daxili çəkişmələrin hökm sürdüyü, hakimiyyət davasının aparıldığı həmin hərcmərclik dövründə ölkəmiz vətəndaş müharibəsinin astanasında, ağır siyasi, iqtisadi böhranların məngənəsində çırpınırdı. Digər yandan da torpaqlarımız Ermənistan silahlı qüvvələri tərəfindən bir-bir işğala məruz qalır, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşərək ağır məhrumiyyətlər içərisində ölkəmizin digər rayonlarında yaşamağa məcbur olurdular.

Hakimiyyət kürsüsünə zorla yiyələnərək xalqı istibdada, zülm-zillətə düçar etməkdən, vətəni iştahlarının qurbanına çevirməkdən başqa məziyyətləri olmayan antimilli qüvvələr müstəqilliyini yenicə qazanmış Azərbaycanı bir ölkə olaraq dünya xəritəsindən silinmək kimi dəhşətli sona yaxınlaşdırırdı. Erməni qatilləri tərəfindən soyqırımları ilə üzləşən, yurdlarından didərgin salınan, ölkədəki iqtisadi böhran sayəsində yeməyə quruca çörək tapmayan xalq çox çarəsiz, çıxılmaz vəziyyətdə idi.

Məhz bu cür çətin, çoxsaylı təhlükələrlə baş-başa olduğumuz bir zamanda, 1993-cü ilin iyununda Tanrı Ulu Öndər Heydər Əliyevi Azərbaycan xalqına xilaskar kimi yetirdi.

Tarixinin ağır sınaqlı dönəmində müdrik xalqımız təkidli tələbi ilə Heydər Əliyevi hakimiyyətə qaytarmaqla Azərbaycanı XX əsrdə yenidən müstəqilliyini itirmək təhlükəsindən qurtardı. Azərbaycanlı olması ilə daim fəxr edən Ulu Öndər apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində qısa müddətdə ölkəmizi böhrandan azad edərək xilas yoluna çıxardı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəs sazişinin imzalanmasına nail olan Heydər Əliyev bundan sonrakı mərhələdə siyasi, diplomatik müstəvidə torpaqlarımızın işğaldan azad edilməsi üçün uzaqgörən siyasət yürütməyə başladı. "Əsrin müqavilə"si ilə Azərbaycan tarixində yeni və parlaq bir səhifə açaraq ölkənin iqtisadi inkişafına, əhalinin rifah halının günbəgün yaxşılaşmasına təkan verən Ulu Öndər ordu quruculuğu prosesinə də uğurlu start verdi.

Bir sözlə, cəmi 10 il ərzində Ümummilli Lider Heydər Əliyev Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə olan ölkədən, dünyada tanınan, azad siyasət yeridən, rifah və tərəqqi ölkəsinə çevirdi.

### Qələbəyə inamla

2003-cü il oktyabrın 15-də Qurani-Kərimə əl basaraq Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edəcəyinə and içən Ulu Öndər Heydər Əliyevin siyasi davamçısı Prezident İlham Əliyev ötən 20 il ərzində verdiyi bütün vədləri layiqincə yerinə yetirərək Azərbaycanı tarixində ən qürurlu məqama yetirdi.

Xalqın yekdil qərarı ilə 2003-cü ildə prezident seçilən İlham Əliyevin siyasi, iqtisadi, sosial, hərbi, ümumiyyətlə, bütün sahələrdə həyata keçirdiyi mükəmməl siyasət nəticəsində Azərbaycan Cənubi Qafqazın lider ölkəsinə çevrilib. Beynəlxalq təşəbbüsləri, qlobal təhlükəsizliyə verdiyi töhfələri ilə Azərbaycanı dünyanın sayılıb-seçilən ölkəsinə çevirən İlham Əliyevin heç şübhəsiz qarşısına qoyduğu bir nömrəli vəzifə milli maraqlarımızın təmini olub. Onun qəti mövqeyi bu idi: istər sülh, istərsə də müharibə yolu ilə olsun, torpaqlarımız işğaldan azad edilməli, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olunmalıdır.

Əzmkar lider İlham Əliyev hakimiyyətdə olduğu 20 il ərzində müəyyənləşdirdiyi milli məqsədlərinə doğru qətiyyətlə və inamla irəlilədi və müqəddəs hədəflərinə bir-bir nail oldu, Azərbaycan xalqını pillə-pillə qələbəyə yüksəltdi.

Aprel qələbəsi, Günnüt əməliyyatı ilə düşmənlərimizin bağrına qorxu atəşi salındı. 2020-ci ildə cəmi 44 gün ərzində torpaqlarımız işğaldan azad edilərək xalqımıza illərdən sonra böyük Şuşa zəfəri yaşadıldı.

Hakimiyyətə gəlməsinin 20-ci ildönümü günündə - 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını ucaldan qalib lider İlham Əliyev özü bu barədə deyirdi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik".

### Qarabağ Azərbaycandır!

Düz 100 il əvvəl, 1923-cü ildə Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Xalqımızın başına olmazın müsibətlər açılan bu məşum yüz ilə də son nöqtəni müzəffər lider İlham Əliyev qoydu. Sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Qarabağdakı quldur yuvası dağıdıldı, erməni separatizmi məhv edildi. Azərbaycanlılara qarşı soyqırımları həyata keçirən, qətliamlar törədən separatçı canilər isə əlləri qandallı, başları aşağı halda Bakıya ədalət mühakiməsinə gətirildilər. İndi onlar Azərbaycan qanunları qarşısında törətdikləri cinayət əməllərinin haqq-hesabını verirlər.

Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Əsgəranda, Xocalıda, Ağdərədə bayrağımızı ucaltması Azərbaycan xalqının illərdir qəlbində dövr edən sağalmaz vətən yarasına məlhəm çəkdi. Bayrağımızın ana yurdun hər yerində dalğalanmasından böyük qürur hissi keçirdik, torpaqlarımız uğrunda canını qurban verən bütün şəhidlərimizin ruhunun şad olmasına görə ürəyimiz dinclik tapdı.

"Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" deyə fəxarət hissini Xankəndidən bütün dünyaya bəyan edən Prezident İlham Əliyevin vurğuladığı kimi, ana yurdumuz Azərbaycana hər zaman qələbələr yaraşır!

### Dövlət müstəqilliyimiz toxunulmaz və əbədidir

Bu gün - 18 Oktyabr Müstəqilliyimizin Bərpası Gününü Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi bütün qələbələrin ab-havasında qeyd edirik.

Ən əsası müstəqilliyimizin bərpası tarixindən - 1991-ci ildən sonra ilk dəfədir ki, bu bayramı Azərbaycanın suverenliyinin tam təmin olunmasının yaratdığı milli qürur hissi, dövlət müstəqilliyimizin əbədiliyinin sarsılmaz inamı ilə keçiririk.

Zəfərlərin, bayramların mübarək, Azərbaycan!

Yaşa, qoy üçrəngli bayrağın torpaqlarımızın hər yerində əbədiyyətədək məğrur-məğrur dalğalansın, vüqarlı ölkəm!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dövlət başçısının Zəfər nitqi Qafqazın gələcək birgəyaşayış direktivi idi

"Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndi şəhərində dövlət bayrağını ucaltması Azərbaycanın müstəqilliyini möhkəmləndirmək kimi ciddi proseslərlə müqayisə oluna biləcək tarixi hadisədir. Çünki nə cümhuriyyət dövründə, nə də 1991-ci ildən sonra Xankəndidə Azərbaycanın üçrəngli bayrağı dalğalanıb".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.

O bildirib ki, Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırıldığı 1987-ci ildən bəri heç bir Azərbaycan rəhbəri Xankəndiyə getməyib: "Daha doğrusu, Vəzirov və Mütəllibov Xankəndiyə getməyə özlərində cəsarət tapmayıb. AXC-Müsavat iqtidarı isə nəinki Xankəndiyə, ümumiyyətlə, Xırdalandan o yana keçə bilmirdilər. 15 iyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri kimi Milli Məclisin iclasında ilk çıxışında müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının geri qaytarılmasını, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını, müharibənin qurtarmasını və sülhün yaranmasını dövlətin qarşısında ilk vəzifə kimi müəyyən etdi.

B.Məhərrəmov qeyd edib ki, məhz bu məqsədlər naminə Ulu Öndərin rəhbərliyi altında genişmiqyaslı tədbirlərə start verildi, ordu quruculuğu, yeni neft strategiyası, hüquqi islahatlar, vətəndaş cəmiyyətinin formalaşdırılması kimi mühüm işlər həyata keçirilməyə başlanıldı. 1994-cü ildə cəbhə xəttində dönüşə nail olundu, Ulu Öndərin Ali Baş Komandanlığı altında ordumuz Füzuli və Cəbrayılın bir sıra strateji yüksəkliyini, kəndini, o cümlədən Horadiz qəsəbəsini azad etdi. Müstəqilliyin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı, beynəlxalq münasibətlərin normallaşması istiqamətində əhəmiyyətli addımlar atıldı. Lakin səhhəti imkan vermədiyi üçün dahi liderin dediyi kimi, nəticəsini öncədən gördüyü, amma tamamlaya bilmədiyi yarımçıq işləri özü qədər güvəndiyi, ən yaxın silahdaşı cənab İlham Əliyevə həvalə etdi. Prezident İlham Əliyevin ötən 20 illik siyasi hakimiyyətinin fəaliyyət xronologiyasına diqqət etsək, onun hər bir addımının, hər bir qərarının bizi Ulu Öndərin suverenliyi, ərazi bütövlüyü təmin olunmuş qalib Azərbaycan idealına yaxınlaşdırdığının şahidi olarıq.

Deputat vurğulayıb ki, bu illər ərzində həyata keçirilən titanik fəaliyyət, Azərbaycan tarixinin ən güclü ordusunun və 1200 addan çox istehsal qabiliyyətli müdafiə sənayesinin formalaşdırılması, siyasi müstəqilliyin güclənməsi, dinamik iqtisadi inkişafa nail olunması, qlobal müstəvidə haqq işimiz naminə hüquqi bazisin formalaşdırılması fonunda dövlət başçımızın güclü lider məharətinə şahidlik edirik. "Nəhayət, Vətən müharibəsində düşmən tərəfindən 30 il möhkəmləndirilən, keçilməz istehkamların, siyasi maneələrin dəf edilərək 44 günə yeni reallığın yaradılmasını gördük. Ardınca isə cəmi 23 saata separatizm yuvasının darmadağın edilməsi tamamilə yeni bir mənzərə meydana çıxartdı. Xankəndidə dövlət bayrağımızın dalğalanması isə artıq proseslərin məntiqi sonu oldu. Beləliklə, Heydər Əliyev siyasi kursuna sadiq qalmaqla cənab İlham Əliyev 20 il öncə andiçmə mərasimində verdiyi vədi yerinə yetirdi, qarşıya qoyduğu vəzifələrin icrasını başa çatdırdı".

Deputat bildirib ki, oktyabrın 15-də Xankəndi şəhərində dövlət bayrağımızı ucaltmaqla Prezident İlham Əliyev dünyaya mesaj verdi ki, nə Azərbaycan əvvəlkidir, nə də ki geosiyasi situasiya.

Hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri kimi Ulu Öndər 2 iyul 1993-cü il tarixli ilk bəyanatında dünyaya müraciət etmişdi. Dünya dövlətləri rəhbərlərini, BMT, ATƏM və digər nüfuzlu beynəlxalq təşkilatları Ermənistanın davam edən və daha da şiddətlənən təcavüzünü qətiyyətlə pisləməyə, təcavüzkarı cilovlamaq məqsədilə təcili, təsirli və qəti tədbirlər görməyə çağırmışdı. Möhtərəm Prezidentin Xankəndidən bəyan etdiyi kimi, hesab edirdik ki, bu məsələ sülh yolu ilə həll oluna bilər.

B.Məhərrəmovun sözlərinə görə, son üç ilə qədər beynəlxalq hüquq Azərbaycanın ərazi bütövlüyünü kağız üzərində təsbit etsə belə, rəsmi bəyanatlarda Ermənistanı işğalçı adlandıran subyektlər yox səviyyəsində olub: "Əksinə, beynəlxalq hüququn iri subyektləri, başda ATƏT-in Minsk qrupunun, BMT Təhlükəsizlik Şurasının üzvü olan həmsədrləri belə Azərbaycanı işğal və təcavüz status-kvosu ilə barışmağa, münaqişəni dondurmağa və tədricən Bakını ərazi itkisinə razı salmağa çalışırdılar. Ermənistan da uca səslə danışa bilirdi, çünki qarşısında məğlub Azərbaycan var idi. Üstəlik, hərbi nöqteyi-nəzərdən Azərbaycanla təmas xəttində bütün strateji yüksəkliklər Ermənistan ordusunun nəzarətində idi. Həmçinin 30 il Fransanın və digər dövlətlərin davamlı maliyyə dəstəyi ilə Ermənistan keçilməz müdafiə sədləri formalaşdırmışdı".

Prezident İlham Əliyevin təmkinlə, yalnız özünə və xalqına güvənərək vəziyyəti kökündən dəyişdiyini vurğulayan deputat bildirib ki, bu gün artıq Ermənistanla şərti sərhədlərdə Azərbaycan istisnasız bütün strateji yüksəkliklərə nəzarət edir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş ruhu və maddi-texniki təchizatı, habelə arsenalı Ermənistandan müqayisə olunmaz dərəcədə üstündür. Ermənistan və havadarlarının 100 ildən artıqdır ki, əsas rıçağı hesab edilən separatizmin kökü cənab İlham Əliyev tərəfindən kəsilib. Ərazi bütövlüyümüz və suverenliyimiz, konstitusiya quruluşumuz artıq bütün ölkə ərazisində tam bərpa olunub. Xankəndidə möhtərəm Prezidentin Zəfər nitqi, əslində, qələbə və Qafqazın gələcək birgəyaşayış direktivi idi. Bu direktivlə cənab İlham Əliyev bütün dünyaya bəyan etdi ki, bölgənin reallığını biz diktə edirik. Hər hansı ikinci bir subyekt və ya güc mərkəzi yeni şərtlər, yeni reallıqlar barədə danışırsa, bunlar kimin səsləndirməsindən asılı olmayaraq cəfəngiyyatdır.

B.Məhərrəmov qeyd edib ki, bu mənada Azərbaycan Prezidentinin Qarabağa son səfəri qazanılmış şanlı qələbənin triumfu idi. Elə bir triumf ki, hər kəs bu zəfəri layiq olduğu yerdən izləyir-separatçı canilər Bakıda təcridxanadan, Ermənistanın indiki və keçmiş hərbi-siyasi rəhbərliyi qorxaqcasına öz mənzillərindən, Fransa kimi riyakar beynəlxalq oyunçu isə daha uzaqdan. Azərbaycan xalqı isə, nəhayət, 200 il sonra, cənab İlham Əliyevin sayəsində özünün layiq olduğu qaliblər kürsüsündən.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xalqımız növbəti tarixi hadisəyə şahidlik etdi



Oktyabrın 15-də, cənab İlham Əliyevin ilk dəfə Prezident seçilməsinin 20 illiyində xalqımız növbəti tarixi hadisəyə şahidlik etdi. Dövlət başçısı bu əlamətdar gündə otuz il ərzində erməni işğalında qalmış doğma yurdlarımızda - Xankəndi, Xocalı, Ağdərə, Əsgəran və Xocavənd şəhərlərində Azərbaycanın üçrəngli bayrağını ucaltdı. Beləliklə, Prezident İlham Əliyev böyük əmək sərf etdiyi və mübarizə ilə dolu 20 ili məhz belə tarixi hadisə ilə qeyd etməklə xalqımıza bir daha fəxarət və qürur hissləri yaşatdı.

Mövzu ilə bağlı fikirlərini qəzetimizlə bölüşən Milli Məclisin deputatı Fəzail Ağamalı bildirdi ki, cənab İlham Əliyev prezident seçilməsinin 20 illiyinin tamam olduğu tarixi gündə Azərbaycan xalqına böyük bir müjdə verdi. Ali Baş Komandan Qarabağa səfər edərək Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə Azərbaycan bayrağını yüksəltdi. Bu, Azərbaycan xalqına edilən böyük sürpriz idi. Xalqımız həmin anları kütləvi informasiya vasitələrindən izləyəndə olduqca xoş hisslər keçirdi, Ali Baş Komandanımızla, Prezidentimizlə bir daha qürur duydu.

Deputat Xankəndinin, Xocalının, Ağdərənin azadlığını İkinci Qarabağ savaşında əldə etdiyimiz zəfərimizin davamı hesab edir. Dedi ki, Vətən müharibəsində müəyyən səbəblərdən separatçı xunta rejiminin cəmləşdiyi iblis yuvasını ərazidə mülki əhali yaşadığı üçün hərbi vasitələrlə dağıda bilməzdik, ona görə də gözləməli idik. Əgər bunu həmin dövrdə reallaşdırsaydıq, orada itkilər çox olardı. Həm də mülki əhali çox ziyan görər, sadə ermənilərin itkisi qaçılmaz olardı.

"Belə olan halda, Prezident çox böyük uzaqgörənlik göstərərək müharibənin dayandırılması haqqında Ermənistanın kapitulyasiyasını ifadə edən bəyanata qol çəkməyi zəruri hesab etdi və keçən üç il ərzində beynəlxalq səviyyədə çox ciddi işlər aparıldı, unikal xarici siyasət və diplomatik fəaliyyət quruldu. Ən müxtəlif platformalarda Ermənistana separatçı xunta rejiminin ləğv olunması, təcavüzkar siyasətinə son qoyması ilə bağlı xəbərdarlıq edildi. Bu, dəfələrlə keçirilən görüşlərdə, ayrı-ayrı platformalarda aparılan danışıqlarda bir nömrəli məsələ kimi gündəmə gətirilirdi. Lakin nə Ermənistan, nə də xunta rejimi və onların himayədarları bundan nəticə çıxartdılar. Azərbaycan Prezidentinin mövqeyi qəti idi, özünün də dediyi kimi, işi yarımçıq qoymaq niyyətində deyildi. Onilliklər boyu Azərbaycana böyük faciələr gətirən bu sağalmaz yaranı gələcək nəsillərin öhdəsinə buraxmaq istəmirdi", - deyə deputat söyləyib.

Fəzail Ağamalı qeyd etdi ki, dəfələrlə separatçılardan silahları yerə qoymaq, təslim olmaq tələb edilsə də, nəticəsi olmadı: "Xunta rejimi fəaliyyətini davam etdirdi. Belə olan halda, Azərbaycan son addım ataraq sentyabrın 19-20-də 23 saatlıq qısa zaman kəsiyində antiterror tədbirləri həyata keçirərək orada fəaliyyət göstərən quldur dəstələrini darmadağın etdi. Nəhayət, separatçı rejim ağ bayraq qaldırmağa məcbur oldu. Dövlətimizin başçısı həmin ərazilərdə də Azərbaycan bayrağını qaldırdı. Bu, sıradan bir hadisə deyil, Prezident, Ali Baş Komandan İlham Əliyev böyük şəxsiyyət, qətiyyətli rəhbər, mahir sərkərdə və diplomat olduğunu bir daha nümayiş etdirdi".

Deputat əlavə etdi ki, vaxtilə Azərbaycan torpaqlarını Ermənistana birləşdirmək üçün meydanlarda hədyanlar söyləyən ermənilərin yığışdığı Xankəndi meydanı artıq Azərbaycan bayrağının dalğalandığı məkana çevrilib. Həmin meydanda cənab Prezident tarixi çıxış etdi, Ermənistanın xunta rejiminin, onların arxasında duran qüvvələrin Azərbaycanın qətiyyəti, qüdrəti və gücü qarşısında necə rəzil vəziyyətə düşdüklərini nümayiş etdirdi. Buradan verdiyi mesajlarla cənab Prezident bir daha Ermənistanı və onun havadarlarını xəbərdar etdi.

Fəzail Ağamalının sözlərinə görə, bu gün xəyallarımızın cənab Prezident tərəfindən həqiqətə çevrilməsi xalqımıza qürurverici hisslər yaşadır. Artıq tam məsuliyyətlə demək olar ki, Azərbaycanın sərhədləri daxilində ərazi bütövlüyümüz və suverenliyimiz tamamilə təmin olunub. Bu sevinci, bu qürurlu günləri bizə bəxş edən Müzəffər Ali Baş Komandan, Möhtərəm Prezident İlham Əliyevə minnətdarlığımızı bildirir, ona uca Tanrıdan cansağlığı arzulayırıq!

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***



# Xudafərin əməliyyatı

18 oktyabr 2020-ci il. Vətən müharibəsinin 22-ci günüdür. Qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmrlərini uğurla yerinə yetirir. Cəbhədə şiddətli döyüşlər gedir və düşmən silahını, döyüş bayrağını atıb şərəfsizcəsinə qaçır.

## Strateji əhəmiyyətli tarixi körpü necə azad edildi?

Bu gün həm də xalqımız Müstəqilliyinin Bərpası Gününün ildönümünü qeyd edir. Ali Baş Komandan bu bayram sevincini ikiqat artırır. Müzəffər Sərkərdənin rəsmi "X" hesabında "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" paylaşımı hər kəsin ürəyini dağa döndərir.

Bir qədər sonra qəhrəman hərbçilərimiz Xudafərin körpüsünün işğaldan azad edilməsi ilə bağlı Ali Baş Komandana raport verirlər. Bu xəbər hər bir azərbaycanlıya sevinc və qürur bəxş edir.

2020-ci il noyabrın 16-da isə Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş torpaqlarımıza ilk səfərləri zamanı tarxi hadisə yaşanır. Müzəffər Sərkərdə Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırır və 1993-cü ildə işğal edilən Xudafərin 27 ildən sonra azadlığına qovuşur.

### Tarixin sərt sınaqlarından keçərək çox hadisələrə şahidlik edən unikal abidə

Xudafərin körpüləri Orta əsr Azərbaycan memarlığının dövrümüzə qədər gəlib çatan ən unikal abidələrindəndir. Bu abidələr Yaxın və Orta Şərq regionunun ən əzəmətli, ən məşhur körpülərindən hesab olunur. Araz çayının şimal və cənub sahillərini birləşdirən 11 tağlı körpü XI-XII əsrlərdə, 15 tağlı körpü isə XIII əsrdə inşa olunub. Xudafərin körpüləri Böyük İpək yolunun inkişafında mühüm rol oynayıb və hərbi-strateji cəhətdən də müstəsna əhəmiyyətə malik olub.

Xudafərin körpüləri tarixin sərt sınaqlarından keçərək çox hadisələrə şahidlik edib. Bu hadisələrdən ən önəmlisi isə xalqımız üçün mənəvi əhəmiyyəti böyük olan abidələrin azadlığına qovuşmasıdır.

Vətən müharibəsindən sonra inşasına başlanılan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti Xudafərin körpülərinin yaxınlığından keçir. Xudafərin-Qubadlı-Laçın avtomobil yolu başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürür.

Prezident İlham Əliyevin 2021-ci il oktyabrın 4-də təməlini qoyduğu "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da Şərqi Zəngəzurun İrana çıxış nöqtəsində - Xudafərin körpülərinə yaxın ərazidə yerləşir. Bütün bunlar onu deməyə əsas verir ki, tarixi İpək yolunun üzərində yerləşən, əsrlər boyu Araz çayının şimalı ilə cənubunu birləşdirən Xudafərin körpülərinin strateji əhəmiyyəti bundan sonra daha da artacaq.

### Xudafərinin azadlığına aparan yol

Oktyabrın 17-də Füzuli şəhəri düşməndən azad edilmişdi. Azərbaycanın qəhrəman oğulları Zəfərə gedən yolda daha da ruhlanmışdılar. Bu qələbə ilə "keçilməz Ohanyan" mifi də məhv edilmişdi və qorxudan düşmənin bağrı yarılmışdı.

Hər kəsə bəllidir ki, Azərbaycan Silahlı Qüvvələri Vətən savaşında indiyədək heç bir ordu tərəfindən həyata keçirilməyən çətin relyefdə xüsusi döyüş tapşırıqları yerinə yetirib. Məhz bu müasir döyüş taktikası nəticəsində 30 il torpaqlarımızda möhkəmlənən, "keçilməz" istehkamlar quran düşmən yalnız qaçmaqla canını qurtara bilib.

Bu da onu sübut edir ki, Ali Baş Komandanın "Dəmir yumruq" əməliyyatını yerinə yetirən bütün silahlı birləşmələr tapşırıqlarının icrasını uğurla reallaşdırıblar. Arazboyu ərazilərin, o cümlədən Xudafərin, Zəngilan şəhəri, eləcə də rayonun Ağbənd qəsəbəsi və "Şükrataz", həmçinin dəniz səviyyəsindən 2269 metr hündürlükdə olan "Bartaz" yüksəkliyinin düşmən tapdağından azad olunması tapşırığı Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkat Qüvvələrinə tapşırılmışdı. Azərbaycanın qəhrəman oğulları bu tapşırıqları layiqincə yerinə yetirərək Vətən qarşısında borclarını canları, qanları bahasına həyata keçirmişdilər.

Bəs Xudafərinin azadlığı necə baş verdi?!

Bu əməliyyatların haradan başlaması, hansı taktikalardan istifadə edilməsi, yəni əsl reallıqları bilmək üçün DSX-nin Çevik Hərəkat Qüvvələrinin döyüş yoluna nəzər yetirmək kifayətdir.

Öncə onu qeyd edək ki, Xudafərinin azad olunmasına gedən yol Cəbrayıl rayonunun Əmirvarlı-Soltanlı istiqamətində olan yüksəkliyin düşməndən təmizlənməsindən keçirdi. Həmin yüksəklikdə düşmənin ən güclü dayaq nöqtəsi hesab etdiyi 3-cü eşalon yerləşirdi. Bura o yüksəklik idi ki, düşmən Cəbrayıl istiqamətindən Zəngilana və Hadruta, Qubadlıya tərəf hərəkət edən bütün canlı qüvvə və texnikanı gündüz və gecə rahat müşahidə edə bilirdi. Yəni düşmən həmin istiqamətdə hər tərəfi nəzarətdə saxlayırdı. Amma Çevik Hərəkat Qüvvələri taktiki gedişlərlə bu yüksəkliyi çox məharətlə düşməndən təmizləyə bildi.



Keçirilən əməliyyatların iştirakçısı, DSX-nin Çevik Hərəkat Qüvvələrinin "Zəfər" ordenli zabiti Nəsib Mirzəyev danışır: "Cəbrayıl şəhərinin azad olunmasından sonra komandanlıq tərəfindən bizə döyüş tapşırıqları verildi ki, Arazboyu cənub-qərb istiqamətindəki bütün ərazilərin düşməndən tamamən təmizlənməsi əməliyyatlarını Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkat Qüvvələri həyata keçirməli idi. Bu tapşırığı aldıqdan sonra əməliyyatlara başladıq. Ərazi düzəngahlıq olduğu üçün düşmən hər tərəfi azı 10 kilometrlik məsafədən aydın müşahidə edə bilirdi. Gecə vaxtı isə hərəkət qeyri-mümkün idi. Termal gecəgörmə cihazlardan istifadə etməklə hərəkətimizi aydın görürdülər. Yəni nə gündüz, nə də gecə hərəkət etmək olmurdu. Düşmənin üzərinə canlı hədəf kimi yeriyə bilməzdik. Bu səbəbdən də taktiki gedişi dəyişdik. PUA-ları, xüsusən "Harop"ları havaya qaldırdıq. Düşmənin bütün diqqəti havadan hücuma yönəldi və biz də bundan istifadə edərək Zəngilan istiqamətinə doğru hərəkət etməyə başladıq. Bir gecədə xeyli məsafə gedib manevr etdik. Düşmənin heç zaman gözləmədiyi sağ cinahında onların səngərlərinə daxil olduq. Səhər açılanda onlar gördülər ki, başlarının üstünü kəsmişik. Belə olan halda qaçmağa başladılar. Xeyli canlı qüvvəsini məhv etdik. Bununla Zəngilan və Qubadlı istiqamətindən düşmənə gələn dəstək və silah-sursat təminatının da qarşısını aldıq və Xudafərin istiqamətinə doğru irəliləməyimiz üçün əlverişli şərait yarandı".

### Dəlidağ yüksəkliyinin və tarixi abidənin xilası

Bu yüksəkliyin düşməndən təmizlənməsi silahlı qüvvələrimizin Zəfər yürüşünü bir qədər də sürətləndirir. Düşmənin Əmirvarlı-Soltanlı istiqamətindəki güclü müdafiə xətti yarıldıqdan sonra Çevik Hərəkat Qüvvələrinin Araz çayı sahili ilə cənub-qərb istiqamətində irəliləmək tapşırığı alır. Bu əməliyyata DSX-nin zabiti, Vətən Müharibəsi Qəhrəmanı Babək Ələkbərov rəhbərlik edir.

Tarixi abidənin azadlığı istiqamətində həyata keçirilən döyüş tapşırığının icrasını Babək Ələkbərov belə şərh edir: "Komandanlıq tərəfindən yeni döyüş tapşırığı aldıq ki, Xudafərin körpüsü düşməndən azad edilməlidir. Bu da Çevik Hərəkat Qüvvələrinin ən geniş döyüş tapşırıqlarından biri oldu. Biz Araz boyunca irəliləyərək Dəlidağ yüksəkliyini düşməndən təmizləməklə Xudafərinə yetişməli idik. Əməliyyatlara başladıq və qarşımıza çıxan düşmənin bütün canlı qüvvəsini məhv etdik. 11 kilometrlik yolu qısa zamanda qət etdik. Bir sutkadan az bir vaxtda Dəlidağ silsiləsinə yetişdik. Burada düşmənin cəmləşmiş qrupu var idi. Amma onlar bizim xüsusi təyinatlı qüvvələrin peşəkarlığı, qəhrəmanlığı qarşısında çox da duruş gətirə bilməzdilər. Elə belə də oldu və çox sevincliyəm ki, biz bu əməliyyatı heç bir itki vermədən yerinə yetirdik. Dəlidağ yüksəkliyini düşməndən azad edib Xudafərin körpüsünə yetişdik".

Bu ərazilər düşməndən təmizləndikdən sonra qədim abidəmizdə bayrağımızın dalğalandırılması və Ali Baş Komandan İlham Əliyevə Xudafərinin azadlığı raportunun verilməsi xoşbəxtliyi Babək Ələkbərova qismət olur. Özünün söylədiyinə görə, zabitimiz ömründə belə sevinc hissi yaşamamışdır.

Babək Ələkbərov deyir ki, DSX-nin Çevik Hərəkat Qüvvələrinin İkinci Qarabağ müharibəsi dövründə ən sürətli əməliyyat kimi yadda qalmış hücumda 24 saat ərzində 105 kilometr ərazini işğaldan azad edərək düşmənə ağır zərbələr endirib.

Ümumiyyətlə isə Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin "Harop", "Quzğun" və "Hermes" kimi pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin 290 zirehli texnikası məhv edilib.

Xudafərin körpüsü siyasi və iqtisadi cəhətdən mühüm önəm daşıyır. Eyni zamanda bu, Azərbaycanın İranla olan sərhədinin bir çox hissəsinin bərpa olunması demək idi. DSX-nin Çevik Hərəkat Qüvvələrinin dəqiq silahlarla hədəfləri məhv edərkən İranla dövlət sərhdində tikilən strateji obyektlərə - su anbarlarına ziyan vurmaması ilk növbədə onların peşəkarlığından xəbər verirdi.

Beləliklə, 18 oktyabr 2020-ci il heç zaman unutmayacağımız şərəfli və möhtəşəm bir gün kimi tariximizə yazıldı. Artıq 3 ildir ki, Cəbrayılın başucunda xan Arazın sinəsi üstə məğrur dayağa dönmüş, əsrlər şahidi olan tarixi Xudafərin körpüsündə üçrəngli bayrağımız dalğalanır. Azərbaycan səhrədçiləri dövlət sərhədimizi göz bəbəyi kimi qoruyurlar. Əsrlərlə yaşı olan Xudafərin körpüsünün erməni işğalından azad edilməsi həm də şərəf məsələsiydi ki, Azərbaycan Silahlı Qüvvələri bunu bacardı.

### Yenidən qurulan Xudafərin qəsəbəsi

Mənfur düşmənin 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında daşı-daş üstündə qoymadığı faktı artıq dünyaya bəllidir. İşğaldan sonra bütün bəşəriyyət erməni barbarlığına şahidlik etdi.

Urəkdağlayan ərazilərdən biri də Xudafərin qəsəbəsi idi. Ermənilər bu qəsəbəni yerlə yeksan etmişdilər. İndi Qarabağ və Şərqi Zəngəzuru yenidən quran Azərbaycan dövləti heç kimdən maliyyə vəsaiti almadan, işğaldan azad edilən ərazilərimizdə yalnız öz iqtisadi qüdrəti hesabına misli görünməyən quruculuq işləri həyata keçirir. Həmin ərazilərdən biri də Xudafərin qəsəbəsidir. Bu il mayın 4-də Prezident İlham Əliyev Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin də təməlini qoyub.

Qeyd edək ki, bu qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beşotaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansara" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Bu gün bütün Qarabağ və Şərqi Zəngəzurdakı misli görünməyən quruculuq işləri bir daha təsdiq edir ki, tezliklə bütün keçmiş məcburi köçkünlərimizin yurd nisgilinə son qoyulacaq və tarixi torpaqlarımızda həyat yenidən qaynayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gəncənin raket atəşinə tutulmasının üçüncü ildönümü ilə əlaqədar yürüş keçirilib

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin 17 oktyabr 2020-ci il tarixdə raket atəşinə tutulmasının üçüncü ildönümü ilə əlaqədar Gəncədə yürüş keçirilib.





AZƏRTAC xəbər verir ki, yürüş şəhərin "ASAN xidmət" mərkəzinin önündən Qələbə parkına qədər davam edib. Yürüşdə gənclər təşkilatlarının üzvləri, şəhər ictimaiyyəti və sakinlər iştirak ediblər.

Yürüş iştirakçıları Qələbə parkının yaxınlığında raket atəşi nəticəsində dağılan ərazini ziyarət ediblər. Burada təşkil olunan tədbirdəki çıxışlarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Zəfərindən danışılıb, işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımızın dalğalandığı qürurla vurğulanıb. Qeyd olunub ki, Azərbaycan əsgəri ilə üz-üzə gəlməkdən çəkinən düşmən qisasını dinc azərbaycanlılardan çıxmağa çalışıb. Belə hücumlardan biri də 2020-ci il oktyabrın 17-də olub. Erməni silahlı birləşmələrinin Gəncə şəhərini təxminən yerli vaxtla gecə saat 1 radələrində "Skat" ballistik raketləri ilə hədəf alması nəticəsində 15 mülki şəxs ölüb, 55 nəfər yaralanıb.

Ümumiyyətlə, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncəyə 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərdə, xüsusilə gecə saatlarında əhalinin yatdığı vaxt xaincəsinə təşkil olunmuş hücumlar nəticəsində 10 nəfəri kişi, 10 nəfəri qadın və 6 nəfəri uşaq olmaqla, 26 dinc sakin qəsdən öldürülüb, 6 ailə tamamilə məhv edilib. Xəsarət alanlardan 86 nəfəri kişi, 57 nəfəri qadın, 32 nəfəri uşaq olmaqla, 175 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlardan 24 nəfəri 60 yaşdan yuxarı, 21 nəfəri 5-18 yaşarası, 11 nəfəri 5 yaşadək olub. Terror hadisələri zamanı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Çıxışlardan sonra əraziyə gül dəstələri düzülüb.

# Gəncədə erməni terroru qurbanlarının xatirəsi anılıb

Ermənistan silahlı qüvvələrinin Gəncəni növbəti dəfə raket atəşinə tutmasından üç il ötüb. 2020-ci il oktyabrın 17-də erməni silahlı birləşmələri Gəncə şəhərini təxminən yerli vaxtla gecə saat 1 radələrində "Skat" ballistik raketləri ilə hədəf alması nəticəsində 15 mülki şəxs ölüb, 55 nəfər yaralanıb.

AZƏRTAC xəbər verir ki, dünən ictimaiyyət nümayəndələri və şəhər əhalisi Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazini ziyarət edərək, şəhid olan mülki şəxslərin əziz xatirəsini ehtiramla yad ediblər.



Xatırladaq ki, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncəyə 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərdə xüsusilə gecə saatlarında əhalinin yatdığı vaxt xaincəsinə təşkil olunmuş hücumlar nəticəsində 10 nəfəri kişi, 10 nəfəri qadın və 6 nəfəri uşaq olmaqla, 26 dinc sakin qəsdən öldürülüb, 6 ailə tamamilə məhv edilib. Xəsarət alanlardan 86 nəfəri kişi, 57 nəfəri qadın, 32 nəfəri uşaq olmaqla, 175 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlardan 24 nəfəri 60 yaşdan yuxarı, 21 nəfəri 5-18 yaş arası, 11 nəfəri 5 yaşadək olub. Terror hadisələri zamanı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# Gəncəyə beşinci raket hücumunun zərərçəkəni: "Bir gecədə 5 ailə üzvümü itirdim..."

17 oktyabr 2020-ci il... Gəncə Vətən müharibəsi dövründə beşinci dəfə raket hücumuna məruz qaldı. Həmin gün körpə uşaqlar, yaşlılar, qadınlar, bir sözlə, günahsız mülki insanlar yenə də gecəni ard-arda üç dəhşətli partlayış səsi ilə qarşıladılar. 15 nəfər həlak oldu, 55 nəfər yaralandı.









AZƏRTAC həmin raket hücumunun dəhşətlərini yaşayan sakinlərlə görüşüb, onlarla həmsöhbət olub.

Həmin gecə, yerli vaxtla təxminən saat 1-də erməni silahlı qüvvələri "Skat" ballistik raketləri ilə Gəncədə yaşayış yerlərini vurdu. Həlak olan dinc sakinlərdən biri də həmsöhbətimiz Ramiz Ağayevin atası Nürəddin Ağayevdir. "Həmin gecə evdə beş nəfər idik. Terror nəticəsində atam həlak oldu, digər ailə üzvlərim isə yaralandılar. Yarım saat dağıntılar altında qaldım. Yerimi müəyyən edə bilmirdilər. Özümə gələndən sonra ailə üzvlərimin hamısını təcili yardım maşınında gördüm", - deyə R.Ağayev unuda bilmədiyi o gecədən danışıb.

Azərbaycan xalqının gözü o zamanlar televiziyada, oradan gələn cəbhə xəbərlərində idi. Hər kəs o günlərdə dəqiq məlumat almaq üçün heç bir xəbər proqramını gözdən qaçırmır, Ali Baş Komandanın müraciətlərini izləyirdi. Həmin günlərdə Gəncə sakini Teymur Sərkarov da rəşadətli ordumuzdan gələcək Qələbə xəbərlərini gözləyirdi. Təəssüf ki, bir neçə saat sonra o, öz doğmalarını, ailə üzvlərindən beş nəfəri dağıntılar altından əlləri ilə çıxaracaqdı...

Gecə partlayış səslərini eşitdikdən sonra balkona çıxan T.Sərkarov dumanın dədə-baba evlərinin ərazisindən gəldiyini görür. Tez evdən çıxır və həmin yerə doğru qaçır. Hadisə yerinə çatanda isə evlərinin yerlə yeksan olduğunu görüb: "Orada çalışan xilasedicilərə dedim ki, "bura bizim evimizdir, mən bilirəm, kim harada ola bilər". Sonra əllərimlə dağıntıları qazmağa başladım. Birinci bacım qızı Nigar Xaliqovanın, sonra bacım Sevil Əsgərovanın nəşini çıxardım. Ondan sonra özümü itirdim. Səhər morqda kiçik qardaşım Bəxtiyar Əsgərov, bacım Sevilin 10 aylıq körpəsi Narin Xaliqovanın cəsədini tapdım. Onu qucağımda son mənzilə yola saldım. Atam Suliddin Əsgərovla birgə onları yan-yana dəfn etdik", - deyə T.Sərkarov bir gecədə 5 ailə üzvünü itirməsinin dəhşətini dilə gətirib. Həmin hadisədən sonra onun ayaqları tutulub, hazırda yataq xəstəsidir.

Hər iki həmsöhbətimizin bir təsəllisi var. Torpaqlarımızın işğaldan azad olunması və Gəncəyə raket atılması əmrini verən Arayik Harutyunyanın tutularaq Bakıya gətirilməsi.

Xatırladaq ki, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncəyə 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərdə xüsusilə gecə saatlarında əhalinin yatdığı vaxt xaincəsinə təşkil olunmuş hücumlar nəticəsində 10 nəfəri kişi, 10 nəfəri qadın və 6 nəfəri uşaq olmaqla, 26 dinc sakin qəsdən öldürülüb, 6 ailə tamamilə məhv edilib. Xəsarət alanlardan 86 nəfəri kişi, 57 nəfəri qadın, 32 nəfəri uşaq olmaqla, 175 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlardan 24 nəfəri 60 yaşdan yuxarı, 21 nəfəri 5-18 yaş arası, 11 nəfəri 5 yaşadək olub. Terror hadisələri zamanı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə təlim keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bazalanma aerodromlarından uçuşlar edən helikopterlər təlimin planına uyğun olaraq havaya qalxma və yerə enmə, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, hava kəşfiyyatının aparılması və digər fəaliyyətlər üzrə qarşıya qoyulan tapşırıqları yerinə yetiriblər.

Helikopter bölmələrinin döyüş və praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# ZƏFƏR gündəliyi

## 18 oktyabr 2020-ci il

Oktyabrın 18-də saat 00:00-dan yeni humanitar atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri növbəti dəfə razılaşmanı kobud surətdə pozub.

Düşmən Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutur. Şəxsi heyət arasında itki yoxdur. Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Qoşunlar bütün cəbhəboyu əlverişli hədd, əhəmiyyətli yüksəklik və mövqelərdə müvafiq fəaliyyətlər həyata keçirib.

❖ ❖ ❖

Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib.



Düşmən döyüş texnikası, silah-sursat və digər hərbi vasitələri tərk edərək qaçmaq məcburiyyətində qalıb. Cəbhəboyu bütün istiqamətlərdə bölmələrimiz üstünlüyü əldə saxlayıb.

❖ ❖ ❖




Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində daha bir paylaşım edib:

"Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram hesabında Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib:

"Bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun! Uca Tanrı xalqımızı, Vətənimizi qorusun!"

❖ ❖ ❖

Saat 12:30-da cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

❖ ❖ ❖

"Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir".

Bu fikirlər Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi instaqram hesabında etdiyi növbəti paylaşımda öz əksini tapıb.

Paylaşımda deyilirdi: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə atdığı xüsusi təyinatlılar Azərbaycan əsgərinin həmləsinə tab gətirməyərək geri qaçmağa məcbur edilib.

Nümayiş olunan videoda Azərbaycan Ordusunun zirehli texnika və əsgərlərinin erməni xüsusi təyinatlılarını necə qovduğu müşahidə olunub.

Videonun son kadrlarında düşmən səngərləri tərk etdikdən sonra həmin mövqelərə doğru Azərbaycan əsgərinin irəliləməsi aydın görünürdü.

❖ ❖ ❖

Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

❖ ❖ ❖

Müdafiə Nazirliyi işğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağının qaldırılması, eləcə də Füzuli istiqamətində gedən döyüşlərdə xeyli sayda canlı qüvvə və texnika baxımından itkilərə məruz qalan düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnikası və silah-sursatının foto və videogörüntüləri ni yayıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azərbaycan nümayəndə heyəti TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin toplantısında iştirak edib




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 5-ci toplantısında iştirak edib.

Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, toplantıda çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, müştərək tariximiz, mənəvi dəyərlərimiz sağlam bünövrə üzərində dayanmış əməkdaşlığımızın inkişafına, cəmiyyətlərimizin maariflənməsi və qarşılıqlı etimadın artırılmasına ciddi stimul verməkdədir.

Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyasının dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran Əhməd İsmayılov "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" anlaşma memorandumunun, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi, həmçinin Qazaxıstan Respublikası İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında imzalanmış anlaşma memorandumlarının müstəsna rolunu qeyd edərək vurğulayıb ki, media məkanında milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, təcrübə mübadiləsinin genişləndirilməsi, o cümlədən media sahəsində qarşılıqlı əlaqələrin yaradılması əsas məqsədlərimizdəndir.

İcraçı direktor çıxışında türkdilli ölkələrə dair məlumatların beynəlxalq auditoriyaya operativ və düzgün formada çatdırılması üçün türk dünyasının jurnalistləri arasında həmrəyliyə ehtiyac olduğunu qeyd edib, dövlətlərimizin yerləşdiyi coğrafiyanın həqiqətlərinin işıqlandırılması və obyektiv informasiya təminatının həyata keçirilməsi üçün peşəkarlığın və sayıqlığın artırılmasının vacibliyini diqqətə çatdırıb.

# Mir Cəlal Paşayevin kitabı alman dilinə tərcümə edilib




Görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı Almaniyanın tanınmış Erqon-Nomos nəşriyyatının Bibliotheca Academica - Şərqşünaslıq sahəsində seçilmiş nəşrlər sırasında çap edilib. Kitab Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə edilib.

AZƏRTAC xəbər verir ki, Berlin Azad Universitetində dahi şairimiz İmadəddin Nəsimi mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Hess azərbaycanlı və avropalı oxuculara "Şuşanın irsi" kitabının müəllifi kimi də tanışdır.

Azərbaycan füzulişünaslığının banisi Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasını 1958-ci ildə genişləndirərək "Füzuli sənətkarlığı" adı altında monoqrafiya kimi nəşr etdirib. Monoqrafiya XVI əsrdə yaşayıb-yaratmış dahi şairimiz Məhəmməd Füzulinin ədəbi yaradıcılığı və sənəti, o cümlədən şeir mədəniyyəti və bədii nəsri haqqında elmi araşdırmaları əks etdirir. Mir Cəlal kitabında Füzuli yaradıcılığının ayrı-ayrı məsələləri və motivlərinin araşdırılması ilə yanaşı, onun ümumi ədəbi mənzərəsini elmi cəhətdən verməyə nail oldu. Məhəmməd Füzuli türk xalqlarının klassik ədəbiyyatının ona görə tanınmış şairlərindən hesab olunur ki, o, dövrünün üç əsas dili - türk, ərəb və fars dillərində "Divan" yazmaqla ədəbi sənətkarlıq nümunəsi yarada bilmişdir. Alman alimin Füzulinin dövrünün tələblərinə uyğun olaraq Azərbaycan, türk, ərəb və fars dillərini bilməsi ona Füzuli və Mir Cəlal yaradıcılığının dərinliklərini araşdırmağa və avropalı oxuculara təqdim etməyə imkan verdi. Şərqşünas-alim Hess həmçinin kitaba "Giriş sözü" yazaraq, həm Füzuli, həm də Mir Cəlal dövrünün ədəbi və tarixi-siyasi mühitinin elmi-tənqidi təhlilini aparıb. Alman alim sovet-kommunist rejimi tərəfindən ədəbiyyata tətbiq olunan qadağalara və edilən müdaxilələrə dair Qərb oxucusu üçün izahlar verərək yazmışdır ki, dövrün ideoloji məhdudiyyətlərinə baxmayaraq, Mir Cəlal Füzulini milli şair kimi araşdırmağa və təqdim etməyə nail oldu. Dr. Hess kitabda "Füzuli sənətkarlığı" əsərinin ədəbi elmi aspektlərinə dair müfəssəl izahatlar verib.

Mixael Raynhard Hessin qənaətinə görə, "Azərbaycanda füzulişünaslığın əsasını qoyan "Füzuli sənətkarlığı" əsərinin digər dəyərli xüsusiyyətlərindən biri Mir Cəlalın çoxsaylı məsələlərin araşdırılması üçün orijinal mənbələrdən birbaşa istifadə etməsidir. Məhz bu səbəblərdəndir ki, yazıldığı tarixdən 80 il keçməsinə baxmayaraq, Füzuli yaradıcılığı haqqında Mir Cəlalın elmi əsəri ilə müqayisə oluna biləcək dərinlik və müfəssəlliyə malik elmi əsər yazılmayıb. Bu gün də bu əsər Füzuli yaradıcılığının araşdırmaçıları üçün əvəzolunmaz mənbədir".

Füzuli dühasının araşdırılmasına həsr olunan bu monoqrafiya həmçinin Mir Cəlal yaradıcılığının avropalı oxuculara çatdırılması baxımından böyük əhəmiyyətə malikdir. Mir Cəlalın "Füzuli sənətkarlığı" əsəri Almaniyanın milli biblioqrafiyasına daxil edildi.

# Azərbaycanla Özbəkistan arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub

Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 5-ci toplantısı çərçivəsində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ilə Özbəkistan Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin baş direktoru Asadjan Xocayev arasında ikitərəfli görüş keçirilib.

Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, görüşdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub, həmçinin "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafına dair "Yol Xəritəsi"nin icrası istiqamətində görüləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb. Özbəkistan tərəfi ənənə halını alması planlaşdırılan Şuşa Qlobal Media Forumunda iştirakdan məmnunluğunu ifadə edib. Həmçinin növbəti forumlarda da iştirakda maraqlı olduğunu dilə gətirib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Zaqatala şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

Qeyd edək ki, vətəndaşların qəbulu mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilir.

# Tarif Şurası alternativ avtomobil yolu və bir sıra dərman vasitələri üzrə qiymətlər müəyyənləşdirib

Tarif (qiymət) Şurasının oktyabrın 17-də keçirilən növbəti iclasında ənənəvi yola alternativ olaraq yaradılmış Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun yeni hissəsi və bir sıra dərman vasitələri üçün tariflər müəyyənləşdirilib.

AZƏRTAC xəbər verir ki, son illərdə ölkəmizdə avtomobil yolları əsaslı şəkildə yenidən qurularaq təkmilləşdirilib, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Regionların davamlı və tarazlı inkişafının təmin olunması üçün müasir yol-nəqliyyat infrastrukturunun yaradılması müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni hissəsi ölkəmizin nəqliyyat infrastrukturunun güclənməsində önəmli rol oynayır. 129 kilometr uzunluqda olan bu yol Azərbaycanın tranzit daşımalarda iştirak imkanlarını genişləndirəcək, yüklərin çatdırılma müddətini azaldacaq, bölgədə turizmin inkişafına təkan verəcək.

Bu yol ənənəvi yoldan qısadır və sürət həddi daha yüksəkdir. Məsafənin qısa və sürət həddinin yüksək olması isə istifadəçilərə vaxtla yanaşı, yanacağa qənaət etməyə imkan verəcəkdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli qərarı ilə bu yol ödənişli yol kimi müəyyən olunub. Qanunvericiliyə əsasən, keyfiyyəti dövlət standartlarının tələblərinə cavab verən ödənişsiz avtomobil yolu mövcud olduqda ödənişli avtomobil yolları yaradıla bilər və bunun əhalinin həssas təbəqəsinə mənfi təsiri olmur. Çünki bu yoldan istifadə seçimdən asılıdır. Belə ki, eyni keyfiyyətdə ənənəvi yol da mövcuddur.

Qeyd edək ki, həmin yoldan istifadə üzrə gediş tariflərinin müəyyənləşdirilməsi üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Tarif (qiymət) Şurasına müraciət edilib və dünən şuranın iclası keçirilib.

M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni avtomobil yolu üçün gediş tarifləri ƏDV ilə birgə minik avtomobilləri və kütləsi 3,5 tona qədər olan yük avtonəqliyyat vasitələri üzrə 1 km üçün 9,3 qəpik (bütün yol üçün 12 manat) müəyyən edilib. Kütləsi 3,5 tondan yuxarı olan yük avtonəqliyyat vasitələri və digər maşın-mexanizmlər üçün tarif isə 1 km üçün 11,6 qəpik (bütün yol üzrə təxminən 15 manat) təşkil edəcək. Avtobuslar üzrə isə bu yolun 1 km-i üçün tarif 7,8 qəpik səviyyəsində (bütün yol üçün 10 manat) müəyyənləşdirilib. Qoşqulu və yarımqoşqulu nəqliyyat vasitələri, o cümlədən 3-4 oxlu və ya TIR-ların ödənişli yoldan istifadəsi üçün qiymət 1 km-ə 19,4 qəpikdir (bütün yol üçün 25 manat).

Gediş üçün ödənişin məbləği avtomobil yolunun texniki dərəcəsi, aidiyyəti qurumlar tərəfindən aparılan monitorinqlər əsasında nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla müəyyənləşdirilib. Hazırda yolda son tamamlama işləri aparılır.

İclasda həmçinin yeni dövlət qeydiyyatına alınan 202 dərman vasitəsinin qiymətinin yuxarı həddi təsdiq edilib və etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınmış 48 dərman vasitəsinin qiymətinin yuxarı həddində Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq olunmuş Qaydalara və Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli qərarı ilə təsdiq edilmiş təlimata uyğun olaraq dəyişikliklər aparılmışdır. Ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiymətlərinin yuxarı həddi təsdiq edilmiş dərman vasitələrinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (**www.tariff.gov.az**) "Dərman vasitələri" bölməsində (**http://tariff.gov.az/documents/DVA.pdf**) yerləşdirilib.

Qərarlarla Tarif (qiymət) Şurasının rəsmi saytının (**www.tariff.gov.az**) "Şuranın qərarları" bölməsində tanış olmaq olar. Qərarlar oktyabrın 20-də qüvvəyə minəcək.

# Bakıda 27 ölkədən hərbi təhsil ekspertlərinin iştirakı ilə seminar başlayıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO-nun Beynəlxalq Dil Koordinasiya Bürosu ilə əməkdaşlıq çərçivəsində Bakı şəhərində beynəlxalq seminar öz işinə başlayıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, seminarda çıxış edən Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev hərbi təhsil sahəsində görülən işlərin vacibliyini, o cümlədən keçirilən görüş, seminar və kurslarda xarici və yerli mütəxəssislər arasında qarşılıqlı təcrübə mübadiləsinin önəmini xüsusi vurğulayıb.

Məlumat üçün qeyd edək ki, 27 ölkədən 50-dən çox nümayəndənin iştirakı ilə keçirilən seminarın məqsədi NATO və tərəfdaş ölkələrin dil mərkəzi mütəxəssislərinin qiymətləndirmə meyarlarının qarşılıqlı standartlaşdırılması (STANAG 6001) və hərbi təhsil sahəsində ingilis dilinin tədrisində innovasiyaların tətbiqi ilə bağlı fikir mübadiləsinin aparılmasıdır.

Seminar oktyabrın 19-dək davam edəcək.

# Ölkəmizdə Azərbaycan-Türkiyə birgə taktiki təlimi keçiriləcək





Azərbaycanda keçiriləcək Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş birgə taktiki təlimə cəlb edilən qardaş ölkənin Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu və aviasiya vasitələri ölkəmizdədir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, birgə taktiki təlimin oktyabrın 23-25-də Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilərimiz də daxil olmaqla bir neçə istiqamətdə keçirilməsi planlaşdırılır.

# Suriyadan 10 vətəndaşımız Azərbaycana repatriasiya olunub

Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində oktyabrın 17-də Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə saxlanılan 9 nəfəri uşaq və 1 nəfəri qadın olmaqla, 10 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, repatriasiya olunmuş uşaqlardan 4 nəfərinin hər iki valideynini itirdiyi məlumdur. Bu xüsusda ilk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib, sonradan Türkiyə Respublikası ərazisinə keçidinə nail olunub.

İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyəyə ezam edilərək, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin edilib.

Oktyabrın 17-də nümayəndə heyətinin müşayiəti ilə qeyd olunan vətəndaşların ölkəmizə repatriasiyası həyata keçirilib.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan hökuməti tərəfindən xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcək.

# Vaqif Xaçatryanın növbəti məhkəmə iclası keçirilib

Qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədənlərdən biri - Vaqif Xaçatryanın cinayət işi üzrə oktyabrın 17-də növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Yasamal Rayon Məhkəməsinin inzibati binasında Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında dövlət ittihamçıları tərəfindən Vaqif Xaçatryana ittiham aktı elan olunub. İttiham aktını dövlət ittihamçısı - baş prokurorun böyük köməkçisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Müqəddəs Sultanov elan edib.

V.Xaçatryan məhkəmə prosesində tərcüməçi ilə təmin olunub.

Məhkəmədə ifadə verən V.Xaçatryanın hüquqlarını Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Radmila Abılova müdafiə edib.

Məhkəmə prosesində həmçinin zərərçəkmiş şəxslər ifadə veriblər. Onlar ermənilər tərəfindən işgəncə və təhqirə məruz qaldıqlarını bildirib, Vaqif Xaçatryanın ömürlük həbs olunmasını tələb ediblər.



Sonra prosesdə fasilə elan edilib. Fasilədən sonra məhkəmə iclasında zərərçəkmişlər Vaqif Xaçatryanın onların başlarına gətirdiyi müsibətlərdən danışıblar.

Qeyd edək ki, məhkəmənin növbəti iclası oktyabrın 18-də keçiriləcək. Xatırladaq ki, Vaqif Xaçatryan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

Vaqif Xaçatryanın iştirakı ilə Qarabağ iqtisadi rayonunda yaşayan, həmçinin Ermənistan Respublikasından gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı hərbi birləşmələrdən ibarət cinayətkar birliyin tərkibində Xocalı (keçmiş Əsgəran rayonu ərazisində) rayonunun Meşəli kəndində yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı, təqibetmə, didərgin salma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma cinayətləri nəticəsində ümumilikdə 27 nəfər qəsdən öldürülüb, 21 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 2 nəfər kənd sakini girov götürülüb, 81 ailə təsərrüfatından ibarət 340 nəfər daimi yaşayış yerlərindən Azərbaycan Respublikasının digər ərazilərinə didərgin salınıb, kənd sakinlərinə ümumilikdə 13 milyon 568 min 60 manat, dövlətə isə 130 min 800 manat məbləğində maddi ziyan vurulub.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

18 Oktyabr Müstəqilliyin Bərpası Günü
münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır!




# Dünya dollardan imtina edəcəkmi?

## Hələlik bununla bağlı təşəbbüslərin nə ilə bitəcəyi bilinmir

Tarixdən məlumdur ki, iqtisadi münasibətlər formalaşanda pul dövriyyədə olmayıb. Həmin illər natural təsərrüfat dövrü adlanırdı. Yəni ticarət bir məhsulu digəri ilə dəyişməklə həyata keçirilirdi və tərəflər özlərinə lazım olan məhsulları bu yolla əldə edirdi.

Lakin belə vəziyyət uzun sürmədi. İnsanlar ticarəti canlandırmaq üçün yeni bir yol - ticarətin pul ilə həyata keçirilməsi üsulunu tapdı. İlk dövrlər pul vahidi kimi misdən, gümüşdən və qızıldan istifadə etməyə başladılar. Hətta tarixdə duzun pul vahidi kimi tədavüldə olması barədə məlumatlar da var.

Dövlətlər formalaşdıqca hər bir ölkə pul kəsməyə başladı. Həmin dövrdə pulun dəyəri onun hansı metaldan olması ilə ölçülürdü. Sözsüz ki, uzun illər pulun ən dəyərlisi qızıl pul oldu. Bu qiymətli metal indi də dəyərlidir, bütün dövlətlər özlərinin valyuta ehtiyat mənbəyi kimi qızıl yığmağa üstünlük verir.

Dolların qlobal valyuta olmasının tarixi İkinci Dünya müharibəsindən sonra başladı. Bu müharibə dünyaya çoxlu insan itkisi ilə yanaşı, böyük həcmdə iqtisadi ziyan da vurmuşdu. Bir çox Avropa ölkələri və sovetlər birliyi müharibə nəticəsində xarabaya çevrilmişdi. Bu ölkələrin insan kapitalı ilə maliyyə gücü də tükənmişdi. Təsəvvür edin, Avropanın ən güclü iqtisadiyyatına malik Almaniyada hər şey dağılmışdı.

Belə bir vəziyyətdə dünya siyasəti meydanına müharibəyə hamıdan gec qoşulub, hamıdan qazanclı çıxan ABŞ daxil oldu. Amerika dünya hökmranlığına nail olmaq üçün bu tarixi fürsətdən məharətlə yararlanmağa başladı. Bunun üçün ilk növbədə özünün nəzarətində olan strukturlar yaratdı. Belə ki, qlobal maliyyə bazarını idarə edən Beynəlxalq Valyuta Fondu ilə Dünya Bankı Amerikanın birbaşa nəzarətindədir. 1946-cı ildə bu qurumlar yarandığı gündən indiyədək dünyanın maliyyə bazarına nəzarət funksiyasını yerinə yetirirlər. Belə vəziyyət isə Amerikaya bütün ölkələrin iqtisadiyyatına təsir göstərmək imkanı yaradır.

Bu yolla Amerika dünyada dollarla aparılan ticarət və iqtisadi müqavilələrin icrasına nəzarət edə bilir, dünyanın bütün maliyyə vəziyyətini öyrənir, ölkələrin iqtisadi əlaqələrindən agah olur, istədiyi ölkəyə sanksiya tətbiq edir, başqalarının da ona qoşulmasından ötrü təsir göstərir. Bir sözlə, bu yolla dünyaya hökm edərək onu öz istədiyi kimi idarə etməyə çalışır və böyük ölçüdə buna nail olur.

Dünyada strateji əhəmiyyət daşıyan neft, qaz, qızıl, buğda və digər məhsullar birjalarda dollarla satılır. Dövlətlərarası bütün iqtisadi müqavilələr dollarla bağlanır, ölkələr arasında ticarət əməliyyatları dollarla aparılır. Demək olar ki, dünyada qiymətli olan hər şeyin dəyəri dollarla ölçülür.

Dolların beynəlxalq valyutaya çevrilməsi üçün əldə olunan razılaşmanın əsas şərti onun qızıl ehtiyatı ilə indeksləşdirilməsidir. Yəni çap edilən dolların arxasında qızıl ehtiyatı olurdu. ABŞ 1971-ci il 15 avqust tarixindən dollarla qızıl arasındakı bağlılığı qopartdı. Həmin gündən bu günədək ABŞ istədiyi qədər kağız əskinasları kəsib dövriyyəyə buraxır. Beləliklə, dünyada dolların istifadə həcmi



ABŞ-nin qlobal ticarətdəki payından dəfələrlə çoxdur. Hazırda dünyada ən çox alınıb-satılan valyuta olan dolların qlobal valyuta mübadilələrindəki çəkisi 87 faizə çatıb.

ABŞ-nin çap etdiyi dollar artıq öz cazibədarlığı ilə yanaşı, dünyada ciddi narahatlıq doğurur. İndi bir çox ölkə bu valyutadan imtina etməklə Amerikanın təzyiqindən qurtulmaq istəyirlər. Avropa Birliyi özünün milli valyutası olan avro yaradıb. İndi bu nümunədən yeni yaranan iqtisadi birliklər faydalanmaq istəyirlər.

Dolların dünyada təsiri o qədər yüksəkdir ki, indi çoxları ondan qurtulmaq istəyir. Hər dəfə Amerika iqtisadiyyatında problem yarandıqda dolların uçot dərəcəsini artırır. Belə olan halda milli valyutalar dəyərini itirir, ölkələr iqtisadi və maliyyə sıxıntıları yaşayırlar.

Bütün bunların fonunda, daha doğrusu, mövcud siyasi qarşıdurma səbəbindən dünyada yeni iqtisadi birliklərin formalaşması prosesi gedir. BRİCS-nin (5 ölkənin - Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikanın dövlətlərarası birliyi) yaranması və onun sıralarının genişlənməsi gələcəkdə yeni iqtisadi münasibətlərin formalaşmasından xəbər verir. Mütəxəssislərin hesablamalarına görə, yaxın illərdə BRİCS-yə üzv dövlətlər məhsul istehsalında "böyük yeddilər"i keçəcəklər. Çünki əhali sayı və təbii resurslar baxımından BRİCS-nin imkanları daha genişdir.

Məlumdur ki, Qərb uzun illər dünyanın mövcud təbii resurslarını və kapitalını nəzarət altında saxlayırdı. Artıq bunun geriyə dönüşünün şahidi oluruq. Xüsusilə Asiya və Afrika ölkələri sürətlə Qərbin istismarçı iqtisadi əməkdaşlığından imtina edirlər. Bunun əvəzində Çinin iqtisadi nüfuzu dünyada sürətlə artır. Səbəbi Çinin iqtisadi partnyorlarına səmərəli və ədalətli əməkdaşlıq təklif etməsidir. Üstəlik, ÇXR iqtisadi cəhətdən əməkdaşlıq etdiyi ölkələrin daxili siyasətinə qarışmır.

Gələcəkdə Türk Dövlətləri Birliyi də dolların təsirindən qorunmaq üçün ümumi valyutalarını yarada bilərlər. Belə bir birliyə qeyri-türk dövlətlərinin də qoşulması ehtimalı yüksəkdir. Məsələn, hazırda Tacikistanla Rusiya birliyə maraq göstərən ölkələrdəndir. Asiyada da yaranan və yaranacaq iqtisadi birliklərin gələcəkdə ABŞ dollarına real təhlükə yarada biləcəyi şübhəsizdir. Bundan başqa, bir çox dövlətlər dolların basqısından qurtulmaq üçün milli valyutalarla ticarət aparmaq barədə razılığa gəlirlər. Məsələn, Rusiya xarici kredit təşkilatlarına, dost və neytral ölkələrin brokerlərinə Rusiya valyuta bazarında, eləcə də törəmə alətlər bazarında milli valyuta ilə ticarət aparmağa icazə verən qərar qəbul edib. Həmin siyahıya 30-dan çox ölkə daxil olunub. Azərbaycan da bu siyahıda yer alan ölkələrdəndir. "Mütəşəkkil ticarət haqqında" Federal qanuna görə, bu sənəd dost və neytral ölkələrin milli valyutalarının birbaşa konvertasiyası mexanizminin səmərəliliyinin artırılmasına, həmçinin ölkə iqtisadiyaytının milli valyutada hesablaşmalara olan tələbatının ödənilməsi üçün rubla birbaşa kotirovkaların formalaşdırılmasına yönəlib.

Amerikaya siyasi, iqtisadi, maliyyə və hərbi güc qazandıran əsas vasitə dollardır. İndi dünyada bir çox dövlət ABŞ-nin bu sahədəki hökmranlığına son qoymaq üçün dedollarizasiya kursunu götürüb. Kütləvi şəkildə dollardan imtina Amerika iqtisadiyyatına və maliyyə sabitliyinə böyük təhlükə yarada bilər. Bununla yanaşı, ABŞ istədiyi dövlətə iqtisadi sanksiya tətbiq etmək imkanını da itirəcək.

Belə yerdə məşhur "kimdir günahkar" sualı yada düşür. Amerika uzun illər onun apardığı siyasətlə razılaşmayan ölkələrə qarşı dollardan "demokl qılıncı" kimi istifadə edib. Bu da dünyada olan dövlətlərin haqlı narazılığına səbəb olub. Milli valyutanın Amerikaya verdiyi imkanlardan sui-istifadə sonda haqlı narazılıqlar yaradıb. İndi həmin narazılıqlar bu ölkəyə qarşı real təhlükə yaratmağa başlayıb. Düzdür, Amerika da ona yaxınlaşan bəladan qorunmaq üçün müvafiq tədbirlər görür. Hələlik bu mübarizənin nə ilə bitəcəyi məlum deyil. Ancaq yaxın illərdə gərginliyin daha da artacağı gözləniləndir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "İlham Əliyev dediyini etdi, "miatsum" ideyamız iflasa uğradı"

## Azərbaycan Prezidentinin Xankəndidən verdiyi bəyanat Hayastanda təşvişi daha da artırıb

Hayastanı qorxuya salan növbəti məqam Prezident İlham Əliyevin Xocalıya, Xankəndiyə, Xocavəndə, Ağdərəyə səfərləri, həmin şəhərlərdə Azərbaycan bayrağını ucaltması olub. Azərbaycan Prezidentinin Xankəndidə Hayastana verdiyi kifayət qədər açıq mesajlar məğlub ölkədə ajiotaja səbəb olub, böyük şok və xof yaradıb.

Xəbər portallarının rusdilli versiyasında yayılan materiallardan hissə-hissə açıqlamaların, videoçarxların təqdim olunaraq müzakirəyə çıxarılması məğlub ölkədə ictimai çaşqınlığın artıq xaosa çevrildiyini göstərir.




Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bir neçəsini diqqətinizə çatdırırıq. Siyasi ekspert Artavaz Melkonyan feysbuk sosial şəbəkəsində maraqlı paylaşımı ilə diqqət çəkib: "İlham Əliyevin Xankəndiyə səfərini, verdiyi mesajları internetdən izlədim. Bir daha əmin oldum ki, biz biabırcasına uduzmuşuq. Haradadır yekəxanalıq edən "rəhbərlərimiz"? Bakıda həbsdədirlər. İlham Əliyev dediyini etdi, artıq "miatsum" ideyamız iflasa uğradı. O, həmişə olduğu kimi, bu dəfə də Xankəndidən verdiyi mesajlara yaxşı hazırlaşmışdı, jestlərin dili savadlı seçilmişdi. Əliyev növbəti dəfə Xankəndidən bəyan etdi və göstərdi ki, Qarabağ Azərbaycandır. Bizim rəhbərlər isə bu sahədə lazımlı biliklərə malik deyil və yarımçıq cavabları ilə özlərini gülməli vəziyyətə salırlar. Amma reallıq birdir: qələbə artıq Əliyevindir".

Xankəndi şəhərində qalan Mişa adlı erməni sakin isə maraqlı fikirləri ilə diqqət çəkib. O, 63 yaşında olduğunu və Xankəndidə doğulduğunu deyib: "Artıq bir həftədir, burada hamı məni tanıyır, hörmət edir, yemək verir. Hətta dünən general mənə maşın verdi, gedib Ballıcada kəndimə, heyvanlarıma baş çəkdim, qəbiristanlığımızda oldum. Buradakı ermənilərin çoxu qaçdı. Ermənilər deyirdilər ki, bu torpaqlar bizimdir. Əgər torpaq sənindirsə, niyə qaçırdın? Utanıram ki, ermənilər qorxaqcasına qaçdılar. Onlar şəhərdəki bəzi mağazaları, dükanları, hətta azərbaycanlılara məxsus qəbirləri dağıtdılar".

Prezident İlham Əliyevin Xankəndidəki çıxışını izləyən, profilinə baxdıqda isə restoranlar şəbəkəsinin sahibi olduğu bilinən Ovasan Naumyan feysbuk səhifəsində yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Biznes fəaliyyəti ilə məşğul olduğumu İrəvanda bilməyən yoxdur. 30 ildir dediklərim yekunda təsdiqini tapır. Qarabağ Azərbaycanındır. Bunu həmişə demişəm və indi təsdiqləndi ki, haqlıyam. Qarabağ problemi bizi 30 il geri saldı. Ermənilər Xankəndini tərk etdilər. Əslində, orada qalsaydılar, İlham Əliyev onlara yaşamaq üçün daha yaxşı şərait yaradacaqdı. Nə var İrəvanda?"

Levon İşxanyan adlı istifadəçi teleqram kanallarından birində Azərbaycan Prezidentinin Xankəndidən paylaşılan videolarına yazdığı rəylə diqqət çəkib: "Ermənistan dağılır, Azərbaycanın qarşısında hər gün daha çox məğlub duruma düşür. Maraqlıdır, bizim media orqanları niyə susur? İlham Əliyevin Xankəndiyə səfəri, verdiyi mesajlar bir erməni kimi məni çox üzdü. Heyif, hər il yay aylarında İrəvandan Xankəndiyə istirahətə gedirdik. Paşinyan isə öz kefindədir".

"X" sosial şəbəkəsində rəy bildirən Simon Qriqoryan adlı istifadəçi isə yazır: "Babam deyirdi ki, türklərlə (red.azərbaycanlılar) çox yaxşı münasibətlərimiz olub. Bu gün uşaqlarım niyə acından ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Qarabağda ağır məğlubiyyətə uğradıq. Gəlmişik İrəvana. Çətin durumdayıq. İndi yeməyə çörək tapmırıq, axı niyə zülmə məruz qalırıq?"

Beləliklə, indi seçim Qarabağın erməni əhalisindədir. Ya Azərbaycan vətəndaşlığı alıb Qarabağa qayıtmalı, ya da ki, istədikləri yerdə yaşamalıdırlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanda epidemioloji vəziyyət stabildir



Koronavirus pandemiyası bu gün də əhəmiyyətli sağlamlıq təhlükəsi olaraq qalır. Mütəmadi olaraq virusun müxtəlif subvariantları ortaya çıxır və inkişaf edir.

Bu ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) pandemiyanın başa çatdığını elan etsə də, son aylar bir çox ölkələrdə COVID-19-un yeni subvariantları olan Eris ("EG.5") və Pirolaya ("BA.2.86") yoluxanların sayının artması problemin hələ də aktual olduğunu göstərir. Cənubi Koreya, Rusiya, ABŞ, Avstraliya, Sinqapur, Türkiyə və Yunanıstan da daxil olmaqla, dünyanın 58 ölkəsində yeni ştamlara yoluxma faktı aşkarlanıb.

Mütəxəssislər bildirirlər ki, dünyada yoluxma hallarının sayının kifayət qədər yüksək olduğunu nəzərə alsaq, koronavirusa qarşı mübarizənin daha bir neçə il xüsusi diqqət tələb edəcəyi proqnozlaşdırılır.

## COVID-19 böyüklər üçün daha təhlükəlidir

ABŞ-nin "Cell" elmi jurnalının tədqiqatına əsasən, uşaqlar böyüklərə nisbətən COVID-19-un ağır simptomları ilə daha az rastlaşırlar. Bunun səbəbi uşaqların immun reaksiyasının böyüklərinkindən fərqli olması ilə əlaqədardır.

Koronavirusa yoluxmuş körpələrdə və azyaşlı uşaqlarda xəstəliyin başlanğıcında uzun müddət ərzində virusla mübarizə apara biləcək çoxlu anticisimlər ortaya çıxır. Həmçinin uşaqlarda iltihab əleyhinə olan zülalların böyüklərdə olduğu kimi, qanda yox, burunda yüksək səviyyəsi müşahidə olunub.

Araşdırmada 81 uşaq iştirak edib. Uşaqlardan götürülmüş nümunələr alimlərə onların virusla ilk təmasından əvvəl, təmas zamanı və sonrakı immun reaksiyalarını öyrənməyə imkan verib.

Tədqiqatçılar sistem immunologiyasından istifadə edərək uşaqların virusa qarşı immun reaksiyasının bir çox aspektlərini tədqiq ediblər. Məlum olub ki, kiçik uşaqlarda anticisimlərin koronavirusa qarşı reaksiyası böyüklərinkindən fərqlənir. Adətən, böyüklərdə anticismlər bir neçə həftə ərzində tədricən istehsal olunur, sonra azalır. Bunun əksinə olaraq, uşaqlar dərhal yüksək səviyyədə anticism istehsal edir və bu, 300 gün ərzində yüksək olaraq qalır.

Alimlər, həmçinin müəyyən ediblər ki, COVID-19-a yoluxmuş böyüklərin qanında iltihab əleyhinə yüksəksəviyyəli molekullar var ki, bu da virusun ağır gedişatından və ölüm riskinin daha çox olmasından xəbər verir. Bu zülallara körpələrin və uşaqların qanında rast gəlinməyib.

## Yoluxma sayında artımlar olsa da, bu hallar kütləvi deyil

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ölkədə epidemioloji vəziyyət stabil olaraq qalır: "Hər ildə olduğu kimi fon səviyyəni aşmır. Statistik göstəricilər deməyə əsas verir ki, ölkədə koronavirusun yayılma coğrafiyası böyük deyil. Son vaxtlar yoluxma sayında artımlar olsa da, bu hallar kütləvi deyil. İstər koronavirus, istərsə də bütün respirator viruslardan qorunma yolları eynidir. Yəni pandemiya dövründə öyrəndiyimiz qızıl qaydalar bizləri qoruya bilər".

T.Eyvazov qeyd edir ki, COVID-19 virusunun əlamətlərini özündə hiss edən hər bir şəxs mütəxəssisə müraciət edərək məhz koronavirus infeksiyasının olub-olmamasını müəyyən edə, laborator üsullarla bu suala cavab verilə bilər: "Hazırda mövsümlə əlaqədar daha çox rast gəldiyimiz kəskin respirator viruslar yüngül keçir, çox az hallarda, əsasən, risk qruplarına daxil olan insanlarda müəyyən fəsadlar verə bilir. Ona görə də bu cür mövsümi virus infeksiyaları xüsusi hallar olmadıqda heç bir ölkədə rutin identifikasiya olunmur. Risk qruplarına daxil olan insanların isə bundan əlavə qrip və koronavirusdan peyvənd vasitəsilə də qorunmaları tövsiyə olunur".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

---

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Bu günü biz 30 ildən çox gözləmişdik
NƏHAYƏT
İlham Əliyev Xankəndidə Azərbaycan Bayrağını ucaltdı
Ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəkdir
Möhtəşəm uğurlar, böyük zəfərlər dövrü
Ölkədə fəaliyyət göstərən siyasi partiyalar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlayıblar
"İlham Əliyev son nöqtəni qoydu"
Qələbənin FÜZULİ müjdəsi

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

---

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## *açıq tender elan edir*

Şəki şəhər 18 nömrəli 720 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **02 noyabr 2023-cü il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **14 noyabr 2023-cü il saat 11:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **15 noyabr 2023-cü il saat 11:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Gündəlik həyat fəaliyyətində çətinliyi olan uşaqların qiymətləndirilməsi və həyat keyfiyyətini artırmaq üçün terapiya imkanlarının genişləndirilməsi ilə bağlı innovativ təşəbbüslərin həyata keçirilməsi", "Görmə imkanı məhdud olan şəxslər üçün innovativ təşəbbüslərin həyata keçirilməsi", "Eşitmə və nitq qabiliyyəti olmayan əlilliyi olan şəxslər üçün surdoloji maarifləndirmə xidmətlərinin aparılması" adlı təkrar müsabiqələr keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 1 noyabr 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 2 noyabr 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5033)

***Müsabiqə komissiyası***

---

# Azərbaycan karateçisi Avrasiya Kubokunda iki medal qazanıb

Başqırdıstanın Sterlitamak şəhərində karatenin bütün növləri üzrə IX Avrasiya Kuboku keçirilib.



AZƏRTAC xəbər verir ki, yarışda ölkəni Azərbaycan Sindo-ryu və Pencak-silat Federasiyasının idmançısı Elxan Cəfərov təmsil edib. 70 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən E. Cəfərov iki bürünc medala sahib çıxıb. O, 40 yaşadək idmançıların yarışında həm kumite, həm də kata yarışlarında üçüncü pilləni tutub.

Avrasiya çempionatında 15 ölkədən 100-dən artıq idmançı birincilik uğrunda mübarizə aparıb.

---

# Bu gün Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var



Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Arabir güclənən şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 11-14°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək.

Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 15-20° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacaq.

---

UNHCR
The UN Refugee Agency

## BİLDİRİŞ

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Bakıdakı ofisi, münaqişədən zərərçəkmiş ərazilərdə mina və partlayıcı qurğuların təhlükəsi haqqında xəbərdarlıq mesajları olan məlumat lövhələrinin hazırlanması və quraşdırılmasına dair **ITB/AZE/020/2023** nömrəli tender elan edib.

Tender barədə ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiz:

**Azerweb.az**
**http://www.azerweb.az/en/event.php?id=10901**

**Sənədlərin son təqdim etmə tarixi**
**29 oktyabr 2023-cü il.**

---

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı
**ARİF MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı
**VAQİF MƏSİMLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı
**ARİF MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı
**VAQİF MƏSİMLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı
**VAQİF MƏSİMLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı
**VAQİF MƏSİMLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5332**
**Sifariş 2706**

**Qiyməti 40 qəpik**